**«Qeydiyyata alınmışdır»**

**Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi**

**AZ200700202**

**…………..........…..……………….**

(İstiqraz buraxılışının dövlət qeydiyyat nömrəsi)

**“ 11 ” mart 2011-ci il**

**………………………..……………….**

(İstiqraz buraxılışının qeydiyyat tarixi)

**………………………..……………….**

(QKDK-nın məsul şəxsinin QKDK-nın möhürü
ilə təsdiq edilmiş imzası)

# KONVERSİYA BORCU İSTİQRAZLARININ EMİSSİYA PROSPEKTİ

Nominal dəyəri 10 000 ABŞ dolları olan, 2 500 ədəd

(İstiqrazların nominal dəyəri və miqdarı)

faizli, sənədsiz adlı təmin edilməmiş konversiya borcu istiqrazları

(İstiqrazların növü və forması)

**Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi bu emissiya prospektində olan məlumatların mötəbərliyinə görə məsuliyyət daşımır və onu qeydiyyata almaqla yerləşdirilən konversiya borcu istiqrazlara öz münasibətini ifadə etmir.**

**Bu emissiya prospektində olan məlumatlar qiymətli kağızlar haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq açıqlanmalıdır.**

AZ1022, Bakı şəhəri, R.Behbudov küçəsi 57

(Emitentin olduğu yer, poçt indeksi göstərilməklə)

Tel.: (012) 4982244

(Emitentin əlaqə telefonlarının nömrələri, şəhərlərarası telefon kodu göstərilməklə)

«Unibank» Kommersiya Bankı»
Açıq Səhmdar Cəmiyyətinin
İdarə Heyətinin Sədri Faiq Hüseynov

(Emitentin kollegial icra orqanı rəhbərinin və ya təkbaşçı icra orqanının vəzifəsi, həmin vəzifəni icra edən şəxsin adı, soyadı və emitentin möhürü ilə təsdiq edilmiş imzası)

9 mart 2011-ci il

(İstiqrazların emissiya prospektinin tərtib olunduğu tarix)

## A Emitent haqqında məlumat

1. Emitentin firma adı və təşkilati-hüquqi forması: «Unibank» Kommersiya Bankı» Açıq Səhmdar Cəmiyyəti (bundan sonra "Emitent");

2. Poçt indeksləri göstərilməklə, emitentin hüquqi ünvanı və olduğu yer: AZ1022, Bakı şəhəri, R.Behbudov küçəsi 57; Faktiki ünvan: AZ1022, Bakı şəhəri, R.Behbudov küçəsi 55

3. Emitentin dövlət qeydiyyatına alındığı tarix və dövlət qeydiyyatını həyata keçirmiş orqanın adı: «Unibank» Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyəti 27 iyul 1992-ci il tarixində o zaman Azərbaycan Respublikası Milli Bankı, hazırda Azərbaycan Resplublikası Mərkəzi Bankı (bundan sonra "AMB") tərəfindən dövlət qeydiyyatına alınmışdır; Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 72 saylı dövlət qeydiyyatı haqqında şəhadətnamə verilmışdır. Emitent 8 avqust 2008-ci il tarixində 1300017201 dövlət qeydiyyat nömrəsi ilə (VÖEN) Azərbaycan Respublikası Vergilər Nazirliyi tətəfindən dövlət qeydiyyatına alınmışdır;

4. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən Emitentə verilmiş eyniləşdirmə kodu: 1312604;

5. 4 dekabr 2010-cu il tarxidə AMB tərəfindən Emitentə 73 saylı bank lisenziyası verilib (8 yanvar 2003-cü ildə verilmiş bank lisenziyası əvəzinə);

6. Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən 29 dekabr 2009-cu il tarixində 336 dövlət qeydiyyat nömrəsi ilə emitentə Sığorta Agenti fəaliyyəti ilə məşğul olmasına dair Lisenziya (Lisenziyanın qüvvədə olma müddəti - müddətsiz).

7. Emitentin maliyyə ili: hər təqvim ilinin 1 yanvar tarixindən 31 dekabr tarixinədək;

8. Mövcud olduğu müddətdə Emitentin firma adında və təşkilati-hüquqi formasında dəyişikliklər haqqında məlumat: Emitent 27 iyul 1992-ci il tarixində AMB tərəfindən dövlət qeydiyyatına alınmışdır və 15 oktyabr 2002-ci il tarixində «Promtexbank» Səhmdar Kommersiya Bankının qoşulduğu «Mbank» Kommersiya Bankı» Açıq Səhmdar Cəmiyyətinin hüquqi varisi olmaqla onun bütün hüquq və vəzifələrini əldə edib. 27 dekabr 2002-ci il tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən təsdiq edilmiş dəyişiklik əsasında Bank «Unibank» Kommersiya Bankı» Açıq Səhmdar Cəmiyyəti adlandırılmışdır;

9. Emitentin təsisçiləri haqqında məlumat:

    9.1 "Azərbaycan" Nəşriyyatı, ünvan: Bakı şəhəri, Mətbuat prospekti, 529 məhəllə (hal-hazırda səhmdarların siyahısında deyildir);;

    9.2 "Birjalararası Broker İttifaqı" səhmdar cəmiyyəti, ünvan: Bakı şəhəri, Lermontov küç., 119 (hal-hazırda səhmdarların siyahısında deyildir);

9.3 “Kooperativ və digər formalarda olan azad sahibkar müəssisələrinin işçilərin həmkarlar İttifaqı”, ünvan: Bakı şəhəri, Xəqani küç., 21 (hal-hazırda səhmdarların siyahısında deyildir); və

9.4 “Kredo-MP” Fondu ünvan: Bakı şəhəri, Qoqol küç., 12/6 (hal-hazırda səhmdarların siyahısında deyildir);

10. Emitentin hər bir filialının və nümayəndəliyinin adı, olduğu yer və qeydiyyatı haqqında məlumatlar:

| | **Filiallar və şöbələr** | **AMB tərəfindən verilmiş icazənin dövlət qeydiyyat nömrəsi** | **İcazənin verildiyi tarix** | **Ünvan** | **Direktor** | **Tarixdən etibarən bir il ərzində qüvvədə olan etibarnamə** |
|---|---|---|---|---|---|---|
| 10.1. | Gəncə | 73/1 | 25.04.2003 | Gəncə şəhəri, 28 May küçəsi ünvan 1, AZ 2003 | Elbrus Bodurov Ələsgər oğlu | 21.07.2010 |
| 10.2. | STB | 73/2 | 8.05.2009 (15 oktyabr 2002-ci il və 25 aprel 2003-cü il tarixli icazənin əvəzinə) | Bakı şəhəri, Xətai rayonu, Telnov küçəsi, 20/22, AZ 1025 | Ələddin Şıxəliyev Yavər oğlu | 21.07.2010 |
| 10.3. | Yasamal | 73/3 | 17.08.2007 (04.04.2005-ci il tarixli icazənin əvəzinə) | Bakı şəhəri, Yasamal rayonu, 615-ci məhəllə, Bəsti Bağırova, 2, AZ 1065 | Mehman Köçərli Fəxrəddin oğlu | 21.07.2010 |
| 10.4. | Neftçilər | 73/4 | 15.05.2006 | Bakı şəhəri, Nizami rayonu, Qara Qarayev küç.66 c, AZ 1096 | Fəxri Sadıqov Fərda oğlu | 21.07.2010 |
| 10.5. | Sumqayıt | 73/5 | 08.08.2006 | Sumqayıt şəhəri, Sülh küç., 30-cu məhəllə, bina 11/1, AZ 5004 | Samir Axundov Ağarza oğlu | 21.07.2010 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 10.6. | Nərimanov | 73/6 | 8.04.2008 (18.04.2007-ci il tarixli icazənin əvəzinə) | Bakı şəhəri, Nərimanov rayonu, Təbriz ,94, AZ 1072 | Rəşad Abdullayev Mirtağı oğlu | 21.07.2010 |
| 10.7. | Əcəmi | 73/7 | 28.04.2007 | Bakı şəhəri, Nəsimi rayonu, 5 MKR, Tağızadə 22 a, AZ 1102 | Müzəffər Abbasov Əlixan oğlu | 21.07.2010 |
| 10.8. | 8 Saylı | 73/8 | 22.08.2007 | Bakı şəhəri, Binəqədi rayonu, Cəfər Xəndan küçəsi, 40a, AZ 1130 | Vüqar Uluxanlı Nurəddin oğlu | 21.07.2010 |
| 10.9. | 10 Saylı | 73/10 | 31.08.2007 | Bakı şəhəri, Xətai rayonu, M.Hadi küçəsi, 33, AZ 1129 | Asim Əmircanov Qasım oğlu | 21.07.2010 |
| 10.10 | 9 Saylı | 73/9 | 11.09.2007 | Bakı şəhəri, Səbayıl rayonu, Neftçilər prospekti,14, AZ 1003 | Fərid Salahov Hikmət oğlu | 21.07.2010 |
| 10.11 | 17 Saylı | 73/11 | 16.11.2007 | Bakı şəhəri, Nəsimi rayonu, R.Behbudov,65, AZ 1022 | Emil Qədimov Rəc oğlu | 21.07.2010 |
| 10.12. | 12 Saylı | 73/12 | 16.11.2007 | Bakı şəhəri, Nəsimi rayonu, H.Əliyev küç. ev 5a, AZ 1110 | Nicat Həmidov Rauf oğlu | 21.07.2010 |
| 10.13. | 13 Saylı | 73/15 | 29.12.2007 | Bakı ş., Şərifzadə küç., İnşaatçılar metrosu yaxınlığındakı ticarət cərgəsində AZ 1138 | Azad Kərimov Mahmud oğlu | 21.07.2010 |
| 10.14. | 15 Saylı | 73/16 | 31.01.2008 | Bakı şəhəri, Nəsimi rayonu, D.Əliyeva küç. ev. 243, AZ 1010 | Menecer vəzifəsini müvvəqəti icra edən- Mehman Köçərli Fəxrəddin oğlu | 21.07.2010 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 10.15. | 14 Saylı | 73/14 | 28.12.2007 | Bakı şəhəri, Xətai rayonu, Babək pr. 2199-cu məhəllə, AZ 1008 | Samir Məmmədov Müsafir oğlu | 21.07.2010 |
| 10.16. | 16 Saylı | 73/18 | 15.05.2008 | Bakı şəhəri, Səbail rayonu, B.Sərdərov küc.,ev. 16.128-ci məhəllə, AZ 1001 | Turan Məlikov Zakir oğlu | 21.07.2010 |
| 10.17. | Şəki | 73/17 | 15.05.2008 | Şəki şəhəri, M.Ə. Rəsulzadə küç., 180, AZ 5500 | Zaur Məmmədov İsmət oğlu | 21.07.2010 |
| 10.18. | Şəmkir | 73/19 | 27.05.2008 | Şəmkir şəhəri , 20 Yanvar küçəsi, AZ 5700 | Adil Kamilov Məhəmməd oğlu | 21.07.2010 |
| 10.19. | Gənclik şöbəsi | 73/Ş-1 | 18.06.2008 | Bakı şəhəri , Nərimanov rayonu, F. Xoyski küçəsi,79, AZ 1110 | Kamran Bəhramzadə Vaqif oğlu | 5.01.2010 |
| 10.20. | Quba | 73/20 | 05.08.2008 | Quba şəhəri, H.Əliyev pr,225, AZ 4002 | Tarıyel Tahirov Tofiq oğlu | 21.07.2010 |
| 10.21. | 19 Saylı | 73/21 | 26.11.2008 | Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Sülh küçəsi 14/2, AZ 1132 | Anar Hacıyev Faiq oğlu | 21.07.2010 |
| 10.22. | Mingəçevir | 73/22 | 22.12.2008 | Mingəçevir şəhəri, H.Əliyev prospekti 47/2, AZ 4500 | Nuru Xəlilov Məmməd oğlu | 21.07.2010 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 10.23. | Gəncə şöbəsi | 73/Ş-2 | 30.12.2009 | Gəncə şəhəri, Kəpəz rayonu, Ş.Hüseynov küç.,2, mən. 1,2,3, AZ 2011 | Mehman Əliyev Tarıyel oğlu | 29.12.2010 |
| 10.24. | Lənkəran | 73/23 | 13.07.2010 (3 fevral 2010-cu il tarixli icazənin əvəzinə) | Lənkəran şəhəri, Akademik Zərifə Əliyeva küçəsi 12, AZ 4200 | Afər Kərimov Əliməmməd oğlu | 21.07.2010 |
| 10.25. | 1 saylı mübadilə şöbəsi | 73/MŞ-1 | 10.12.2010 | Bakı şəhəri, Təbriz Xəlilbəyli 5, AZ1005 | Şöbəsinin Müdir vəzifəsini müvvəqəti icra edən Ağayev Azad Əyyub oğlu | Əmr 21.12.2010 |
| 10.26. | 11 saylı filial (Fəaliyyətini müvəqqəti olaraq dayandırmış) | 73/13 | 08. 05. 2009 | Bakı şəhəri, Xətai rayonu, M.Hadi küç., 66, 2945-ci məhəllə, AZ 1005 | | --- |

Emitentin nümayəndəlikləri mövcud deyil.

11. Nizamnamə kapitalında Emitentin payı 10 (on) faizdən az olmayan hüquqi şəxslər haqqında məlumat:

| **Hüquqi şəxsin adı** | **Hüquqi şəxsin olduğu yer** | **Nizamnamə kapitalında Emitentin payı (%-lə)** | **VÖEN** |
|---|---|---|---|
| «Unicapital» Açıq Səhmdar Cəmiyyəti | Bakı şəhəri, R.Behbudov küçəsi, 57 | 100,00 | 1401258741 |
| «UNİLEASİNG» Lizinq Şirkəti» Qapalı Səhmdar Cəmiyyəti | Bakı şəhəri, R.Behbudov küçəsi, 65/381 | 66,67 | 1400066981 |
| «MilliKart» Məhdud Məsuliyyətli Cəmiyyəti | Bakı şəhəri, R.Behbudov küçəsi, 32 | 8,00 | 1400980591 |

12. İstiqrazların buraxılması haqqında qərar qəbul edilən zaman Emitentin idarəetmə strukturu:

12.1 Səhmdarların Ümumi Yığıncağı;

12.2 Müşahidə Şurası;

12.3 İdarə Heyəti; və

12.4 Audit Komitəsi;

13. Emitentin Müşahidə Şurasının üzvləri haqqında məlumat:

| **Müşahidə şurası üzvünün adı, soyadı, atasının adı** | **Emitentdə tutduğu vəzifə** | **Emitentdən kənarda tutduğu vəzifə** | **Emitentin nizamnamə kapitalında payı (%-lə)** |
|---|---|---|---|
| Qəribov Eldar Mahmud oğlu<br><br>1963-cü ildə doğulub | Müşahidə Şurasının Sədri | «MBASK» Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının Sədri | 50,808 |
| Quliyev Emin Natiq oğlu<br><br>1968-ci ildə doğulub | Müşahidə Şurasının Sədr müavini | 1)«Azel» QSC-nin Müşahidə Şurasının Sədr müavini<br><br>2)Divi Distribyuter Şirkətinin Baş Meneceri | 7,517 |
| Yakovenko İqor İvanoviç<br><br>1961-ci ildə doğulub | Müşahidə Şurasının üzvü | «Azel» QSC-nin Müşahidə Şurasının Sədri | 17,530 |
| Culian Rupert Fransis Hili<br><br>1962-ci ildə doğulub | Müşahidə Şurasının üzvü | 1)Qvorum Investment Partnyor<br><br>2) “UNİLEASİNG” Lizinq Şirkəti” Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının üzvü<br><br>3) “KazInvestBank”ın Direktorlar Şurasının üzvü | - |

| | | | |
|---|---|---|---|
| Zaysler Andreas Manfred<br><br>1959-cu ildə doğulub | Müşahidə Şurasının üzvü | DEG – Almaniya İnvestisiya Korporasiyasının Birinci Vitse-Prezident | - |
| Qəribli Elxan Əhməd oğlu<br><br>1965-ci ildə doğulub | Müşahidə Şurasının üzvü | - | - |
| Ernst Velteke<br><br>1942-ci ildə doğulub | Müşahidə Şurasının üzvü | - | - |

14. Emitentin İdarə Heyətinin üzvləri haqqında məlumat:

| **İdarə Heyətinin üzvünün adı, soyadı, atasının adı** | **Emitentdə tutduğu vəzifə** | **Emitentdən kənarda tutduğu vəzifə** | **Emitentin nizamnamə kapitalında payı** |
|---|---|---|---|
| Hüseynov Faiq Arif oğlu | İdarə Heyətinin Sədri | 1) «UNİLEASİNG» Lizinq Şirkəti» Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının Sədri<br><br>2) «Unicapital» Açıq Səhmdar Cəmiyyətinin Direktorlar Şurasının Sədri | 0,621 |
| Qədirov Vadim Qasım oğlu | Biznesin inzibatiləşdirilməsi və dəstəklənməsi üzrə Direktor | - | - |
| Rəsulzadə Emin Fərid oğlu | Maliyyə üzrə Direktor | 1)«UNİLEASİNG» Lizinq Şirkəti» Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının üzvü,<br><br>2) «Unicapital» Açıq Səhmdar Cəmiyyətinin Direktorlar Şurasının üzvü | - |

| | | | |
|---|---|---|---|
| Zeynalov Faiq Vahib oğlu | İdarə Heyəti Sədrinin Müavini | - | - |
| Məmmədov Fazil Allahverən oğlu | Risklərin İdarə edilməsi üzrə Direktor | Beynəlxalq Daxili Auditorlar İnstitutu Azərbaycan bölməsi "Audit-Azərbaycan " İB İdarə Heyətinin üzvü | - |

15. Emitentin Audit Komitəsinin üzvləri haqqında məlumat:

| **Emitentin Audit Komitəsinin üzvünün adı, soyadı, atasının adı** | **Emitentdən kənarda tutduğu vəzifə** | **Emitentin nizamnamə kapitalında payı** |
|---|---|---|
| İsmayılova Leyla Rabadan qızı - Audit Komitəsinin Sədri | - | - |
| Hüseynov Adil Şeyruz oğlu - Audit Komitəsinin üzvü | "Azərekspertiza" Birliyinin Baş direktoru | - |
| Tağıyeva Səbinə Ramiz qızı - Audit Komitəsinin üzvü | V.E.S Konsaltansi MMC Layihələr və Konsaltinq Departamentinin rəhbəri | - |

16. Emitentin nizamnamə kapitalının 10 (on) faizi və daha artıq həcmdə səsli səhmlərə malik olan səhmdarlar haqqında məlumat:

| **Səhmdar** | **Səhmlərin sayı** | **Nizamnamə kapitalında pay (%-lə)** | **Hüquqi şəxsin olduğu yer** |
|---|---|---|---|
| Qəribov Eldar Mahmud oğlu | 10 566 101 | 50,808 | - |
| «Avropa Yenidənqurma və İnkişaf Bankı» | 3 150 907 | 15,151 | One Exchange Square London EC2A2JN United Kingdom |
| Yakovenko İqor İvanoviç | 3 645 560 | 17,530 | - |

17. Emitentin səhmdarları haqqında məlumat: 2 (iki) hüquqi şəxs və və 9 (doqquz) fiziki şəxs;

18. Emitentin tədavüldə olan investisiya qiymətli kağızları haqqında məlumat:

18.1 Qiymətli kağızların növü və forması: adi sənədsiz adlı səhmlər;

18.2 Qiymətli kağızların son emissiyasının yekunları haqqında hesabatın qeydiyyat nömrəsi və tarixi: AZ100200202, 12 noyabr, 2010-cu il;

18.3 Qiymətli kağızların sayı: 20 796 000 (iyirmi milyon yeddi yüz doxsan altı min) ədəd;

18.4 Nominal dəyəri: 2,16 AZN;

19. Təsis edildiyi tarixdən və ya son beş maliyyə ili ərzində Emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat:

19.1 1993-cü ildə dividendlər ödənilməmişdir

19.2 1994-cü ildə dividendlər ödənilməmişdir;

19.3 1995-ci maliyyə ilin yekununa səhmlər üzrə 114,6 milyon köhnə manat (22 920 AZN) dividend şəklində səhmdarların arasında bölüşdürülüb və ödənilib;

19.4 1996-cı maliyyə ilin yekununa səhmlər üzrə 100,0 milyon köhnə manat (20 000 AZN) dividend şəklində səhmdarların arasında bölüşdürülüb və ödənilib;

19.5 1997-ci maliyyə ilin yekununa səhmlər üzrə 242,3 milyon köhnə manat (48 460 AZN) dividend şəklində səhmdarların arasında bölüşdürülüb və ödənilib;

19.6 1998-ci maliyyə ilin yekununa səhmlər üzrə 620,3 milyon köhnə manat (124 060 AZN) dividend şəklində səhmdarların arasında bölüşdürülüb və ödənilib;

19.7 1999-cu ildə dividendlər ödənilməmişdir;

19.8 2000-ci ildə dividendlər ödənilməmişdir;

19.9 2001-ci ildə dividendlər ödənilməmişdir;

19.10 2002-ci maliyyə ilin yekununa səhmlər üzrə 1 769,13 milyon köhnə manat (353 826, 84 AZN) 15 may, 2003-cü ildə dividend şəklində səhmdarların arasında bölüşdürülüb və ödənilib;

19.11 2003-cü maliyyə ilin yekununa səhmlər üzrə 2 500,0 milyon köhnə manat (500 000,00 AZN) 15 aprel 2004-cü ildə dividend şəklində səhmdarların arasında bölüşdürülüb və ödənilib;

19.12 2004-cü maliyyə ilin yekununa səhmlər üzrə 7 347,0 milyon köhnə manat (1 469 400,00 AZN) 6 iyul 2005-ci ildə dividend şəklində səhmdarların arasında bölüşdürülüb və ödənilib;

19.13 2005, 2006 və 2007-ci maliyyə illərinin yekunlarına səhmlər üzrə 9 000 000,60 AZN 12 may 2009-cu ildə dividend şəklində səhmdarların arasında bölüşdürülüb və ödənilib;

19.14 2008-ci maliyyə ilin yekununa səhmlər üzrə 369 706,67 AZN 10 noyabr 2010-cu ildə dividend şəklində səhmdarların arasında bölüşdürülüb və ödənilib;

19.15 2009-cu maliyyə ilinin yekununa əsasən, dividendlər ödənilməyib, ancaq 10 noyabr 2010-cu ildə Bankın 3 370 500 AZN məbləği Bankın Nizamnamə kapitalının artırılmasına yönəldilib;

20. Emitentin nizamnamə kapitalı haqqında məlumat: Emitentin nizamnamə kapitalı 44 919 360 AZN təşkil edir və nominal dəyəri 2,16 AZN olan 20 796 000 adi səhmdən ibarətdir;

21. 31 dekabr 2010-cu il tarixinə Emitentin öhdəlikləri haqqında məlumat (bütün rəqəmlər min AZN-də göstərilib):

| | |
|---|---|
| Loro hesabları | 4 331 |
| Yerli banklardan (o cümldədn AMB) kreditlər | 23 000 |
| Müştəri hesabları | 54 743 |
| Fiziki şəxslərin müddətli depozitləri | 112 028 |
| Hüquqi şəxslərin müddətli depozitləri | 14 899 |
| Xarici (o cümlədən beynləlxalq) maliyyə institutlarından borcalmalar | 117 669 |
| Digər öhdəliklər | 2 394 |
| **Cəm öhdəliklər** | **329 064** |

## B İstiqrazların şərtləri

Hazırkı B Bölməsində (a) böyük hərflərlə yazılmış lakin mənası başqa cür müəyyən edilməmiş terminlər A Cədvəlində təsbit edilmiş anlayışların mənasını ifadə edir və (b) əlavə edilmiş A Cədvəlində təsbit edilmiş təfsir qaydaları tətbiq edilir.

1. **Emitentin Səhmdarlarının Ümumi Yığıncağı 22 dekabr 2010-cu il tarixində faizli, sənədsiz, adlı, təmin edilməmiş konversiya borcu istiqrazlarının (bundan sonra "İstiqrazlar") buraxılışını və onların əsas şərtlərini təsdiq etdi (Protokol №3). İstiqrazların şərtləri**:

1.1 İstiqrazların Nominal Dəyəri: 25 000 000 ABŞ Dolları ("İstiqrazların Nominal Dəyəri");

1.2 Hər bir İstiqrazın nominal dəyəri: 10 000 ABŞ Dolları;

1.3 İstiqrazların Ümumi Sayı: 2 500 ("İstiqrazların Ümumi Sayı");

1.4 İstiqrazların tədavül müddəti: 1.12-ci bəndin müddəaları nəzərə alınmaqla, İstiqrazların tədavül müddəti 5 (beş) ildir;

1.5 İstiqrazların buraxılışının məqsədi: buraxılışdan əldə edilən vəsaitlər Emitent tərəfindən kiçik və orta ölçülü şirkətlər və pərakəndə müştərilər daxil olmaqla onun ümumi korporativ məqsədləri üçün istifadə ediləcəkdir;

1.6 Yerləşdirmənin növü: açıq yerləşdirmə;

1.7 İstiqrazlara mülkiyyət hüququ: İstiqrazlar üzərində mülkiyyət hüququ İstiqrazlar müvafiq istiqraz sahibinin Milli Depozit Mərkəzi Qapalı Səhmdar Cəmiyyətində depo hesabında qeydiyyata alındıqdan sonra istiqraz sahibinə keçir. 23 dekabr 2010-cu il tarixində QKDK tərəfindən təsdiq edilmiş *Depozitar Fəaliyyətin Həyata Keçiilməsi Standartlarına* əsasən, Milli Depozit Mərkəzi broker və ya istiqraz sahibindən aldığı göstərişdən etibarən 3 (üç) iş günü ərzində həmin qeydiyyatı həyata keçirir;

1.8 Status: İstiqrazlar Emitentin digər təmin edilməmiş və subordinasiya olunmamış öhdəlikləri ilə eyni səviyyəyə malik olan təmin edilməmiş öhdəlikləridir;

1.9 İstiqraz sahiblərinin hüquqları: bu emissiya prospektində təsbit edildiyi qaydada hər bir istiqraz sahibi aşağıdakı hüquqlara malikdir:

(i) öz İstiqrazları üzrə faizlər və cərimə faizlərini almaq;

(ii) İstiqrazların son geri satın alınması zamanı əsas məbləğ və əlavə son faiz ödənişini almaq;

(iii) İstiqrazların vaxtından əvvəl geri satın alınması zamanı Əlavə Vaxtından Əvvəl Geri Satın Alma Ödənişini almaq;

(iv) bu emissiya prospektində nəzərdə tutulmuş hallarda öz İstiqrazlarının vaxtından əvvəl geri satın alınmasını tələb etmək;

(v) bu emissiya prospektində nəzərdə tutulmuş hallarda öz İstiqrazlarını müvafiq sayda Konvertasiya Səhmlərinə konversiya etmək; və

(vi) bu emissiya prospektində və ya Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

1.10 Faizlər:

(i) 1.11 bəndində göstərilən hal istisna olmaqla, Emitent hər bir Faiz Müddəti ərzində ödənilməmiş qalan İstiqrazlar üzrə aşağıdakıların cəminə bərabər olan dərəcədə faiz ödəyir;

(a) illik 8 (səkkiz) faiz; və

(b) həmin Faiz Müddəti üzrə Banklararası Dərəcə;

(ii) faiz:

(a) Faiz Müddətinin ilk günündən (daxil olmaqla) həmin Faiz Müddətinin sonuncu gününə qədər (istisna olmaqla) toplanır;

(b) 360 günlük il və ötmüş günlərin faktiki sayı əsasında hesablanır;

(c) müvafiq Faiz Müddətinin son günü olan Faizin Ödənilməsi Tarixində ödənilir; və

(d) aşağıdakı düstura əsasən hesablanacaq:

**A = N*I*T/360**

beləliklə,

**A** – müvafiq Faiz Ödənilməsi Tarixində ödənilməli olan faiz
**N** – müvafiq Faiz Müddəti ərzində ödənilməmiş qalan İstiqrazların nominal dəyəri
**I** – müvafiq Faiz Müddəti üçün Banklararası Dərəcə üstə gəl illik 8 (səkkiz) faiz
**T** – müvafiq Faiz Müddətinin ilk günü (daxil olmaqla) və müvafiq Faiz Müddətinin son günü (istisna olmaqla) arasında olan günlərin sayı

Faizlərin məbləği bir sentə qədər yuvarlaqlaşdırma ilə hesablanır. Arifmetik yuvarlaqlaşdırma istifadə edilir.

(iii) hər bir Faizin Müəyyən Edilməsi Tarixində Emitent müvafiq Faiz Müddəti ərzində tətbiq edilməli faiz dərəcəsini müəyyən edir və istiqraz sahiblərinə dərhal bunun haqqında bildiriş verir. Emitent tərəfindən faiz dərəcəsinin müəyyən edilməsi hər hansı istiqraz sahibi tərəfindən hər hansı səhvin mövcudluğu iddia edilmədiyi halda qətidir;

1.11 Cərimə faizi:

(i) Emitent İstiqrazlara əsasən ödənilməli olan vaxtda hər hansı məbləği ödəməzsə, gecikdirilmiş məbləğə aşağıdakılara bərabər olan dərəcədə faiz hesablanır:

(a) illik 10 (on) faiz; və

(b) müvafiq Cərimə Faiz Müddəti üzrə Banklararası Dərəcə;

(ii) cərimə faizi:

(a) ödəmə tarixindən faktiki ödəniş tarixinədək, həmçinin mövcud olduğu halda məhkəmə qərarından əvvəl və ya sonra gündəlik toplanır;

(b) 360 günlük il və ötmüş günlərin faktiki sayı əsasında hesablanır;

(c) hər bir Cərimə Faiz Müddətinin sonunda faiz hesablanan məbləğə əlavə edilir; və

(d) tələbdən sonra dərhal ödənilir;

(iii) İstiqraz sahibi tərəfindən həmin müəyyən etmənin yanlış olduğu göstərilməzsə, Emitent tərəfindən müəyyən edilmiş gecikdirilmiş məbləğə tətbiq edilməli faiz dərəcələri qətidir.

1.12 İstiqrazların Ödəmə Müddəti (son geri satın alma): İstiqrazlar daha əvvəl geri satın alınmazsa və ya səhmlərə konversiya edilməzsə, Emitent Son Geri Satın Alma Tarixində İstiqrazları onların əsas məbləği üzrə satın alınır;

1.13 Əlavə son faiz ödənişi: İstiqrazlar daha əvvəl geri satın alınmazsa və ya səhmlərə konversiya edilməzsə, Son Geri Satın Alma Tarixində Emitent istiqraz sahiblərinə həmin tarixə ödənilməmiş İstiqrazların Nominal Dəyərinin 10 (on) faizinə bərabər olan, illik 2 (iki) faiz dərəcəsi ilə Satın Alma Tarixində başlayan və Son Geri Satın Alma Tarixində (istisna olmaqla) bitən müddət ərzində İstiqrazların Nominal Dəyəri üzrə yığılmış faizləri təmsil edən əlavə məbləği ödənilir;

1.14 Könüllü Vaxtından əvvəl geri satın alma:

(i) Emitent İstiqrazları istiqraz sahiblərinə bildirişindən 30 (otuz) gündən əvvəl az olmamaqla istənilən Faiz Ödənilməsi Tarixində onların əsas məbləği üzrə hissələrlə deyil bütövlükdə geri ala bilər, o şərtlə ki:

(a) İstiqrazlar Bağlanma Tarixindən sonra və Bağlanma Tarixinin üçüncü ildönümündən əvvəl (və istisna olmaqla) istənilən vaxt geri satın alındıqda, Emitent əlavə olaraq İstiqrazların Nominal Dəyərinin 5 (beş) faizi məbləğində əlavə ödəniş edir;

(b) İstiqrazlar Bağlanma Tarixinin üçüncü ildönümündə və ya ondan sonra və Bağlanma Tarixinin dördüncü ildönümündən əvvəl (və istisna olmaqla) istənilən vaxt geri satın alındıqda, Emitent əlavə olaraq İstiqrazların Nominal Dəyərinin 7.5 (yeddi tam onda beş) faizi məbləğində əlavə ödəniş edir;

(c) İstiqrazlar Bağlanma Tarixinin dördüncü ildönümündə və ya ondan sonra və Son Geri Satın Alma Tarixindən əvvəl istənilən vaxt geri satın alındıqda, Emitent əlavə olaraq İstiqrazların Nominal Dəyərinin 10 (on) faizi məbləğində əlavə ödəniş edir;

(ii) Emitent eyni zamanda İstiqrazlara əsasən vaxtından əvvəl geri satın alma tarixinədək yığılmış bütün faizləri və digər ödənilməli məbləğləri istiqraz sahiblərinə ödəyir;

(iii) Emitent tərəfindən vaxtından əvvəl geri satın alma haqqında həmin bildiriş geriyə çağırıla bilməz və məcburidir və həmin bildirişin verilməsi nəticəsində Emitent İstiqrazları onların şərlərinə müvafiq olaraq geri satın almaq öhdəliyini daşıyır;

1.15 Konversiyanın yerinə yetirilməməsi üçün İstiqraz sahiblərinin tələbi ilə Vaxtından Əvvəl Geri Alma:

(i) Bankdan asılı olmayan səbəblərdən emissiya prospektində göstərilən müddətdən Azərbaycan Respublikasının qanunvericiliyi və digər normativ hüquqi aktlarla istiqrazların konversiyası üçün nəzərdə tutulan müddətindən çox deyildirsə, istiqrazların konversiyası baş tutmur. Hər bir istiqraz sahibi istiqrazların hamısını və ya onun bir qismini vaxtından əvvəl geri alma hüququna malikdir və Bank əsas məbləğə dair yazılı sərəncam aldığı gündən [30 (otuz) gün]ərzində həmin istiqrazları geri alır.

(ii) Bank istiqraz sahibi(lərinə) eyni zamanda vaxtından əvvəl geri alma gününə hesablanmış faizlərin hamısını və bu istiqrazlarla nəzərdə tutulan digər ödənişləri etməlidir.

(iii) bu bəndə əsasən geri alma baş verərdiyi halda heç bir Əlavə Vaxtından Əvvəl Geri alma Ödənişini həyata keçirilmir.

1.16 Ümumi ödəmə qaydaları:

(i) İstiqrazlara əsasən istiqraz sahiblərinə ödəniləcək bütün ödəmələr Bakı vaxtı ilə 14:00-dan gec olmamaqla heç bir təxirə salınma və ya qarşılıqlı iddia olmadan, ödəmə tarixində ABŞ Dollarında müvafiq istiqraz sahibinin vaxtaşırı olaraq Emitentə bildiriş vasitəsilə bildirərək təyin etdiyi yerə və həmin hesaba ödəyir;

(ii) İstiqrazlara əsasən hər hansı ödəmə üzrə ödəmə tarixi İş Günü olmayan tarixə düşərsə, bu halda həmin ödəmə təqvim ayının növbəti İş Günü ilə və

ya həmin təqvim ayında növbəti İş Günü olmadığı halda bilavasitə ondan əvvəl gələn İş Günü ilə əvəz edilir;

(iii) istənilən istiqraz sahibi hər hansı vaxtda İstiqrazlara əsasən həmin vaxtda ona ödəniləcək tam məbləğdən az miqdarda məbləğ alarsa, bu halda Emitentin buna zidd olan hər hansı göstəriş verə bilməsinə baxmayaraq, həmin istiqraz sahibinin aldığı məbləği öz mülahizəsinə görə müəyyən etdiyi istənilən yolla və ya qaydada və məqsədlərlə yerləşdirmək və tətbiq etmək hüququ vardır;

(iv) Emitent müvafiq istiqraz sahibinə İstiqrazlara əsasən 1.16(i) bəndində müəyyən edilmiş yerdən və valyutadan fərqli olan valyuta və ya yerdə alınmış ödəmələrdən, iddia ərizəsindən, qərardad və ya məhkəmə qərarlarından irəli gələn itkilərin əvəzini ödəyir; Emitent müvafiq istiqraz sahibinin, aldığı valyutanı bazar məzənnəsi ilə konversiya etdikdən və müvafiq yerə köçürdükdən sonra, 1.16(i) bəndində müəyyən edilmiş yerdə və valyutada ona ödənilməli olan tam məbləği ala bilməsi üçün həmin istiqraz sahibinə əlavə məbləğ ödəyir;

1.17 Vergilər:

(i) Emitent İstiqrazlara əsasən müvafiq istiqraz sahibinə istənilən məbləğdə ödəniləcək ödəmələrə görə və ya onlarla əlaqədar olaraq və ya İstiqrazlara əsasən həyata keçirilmiş ödəmələrə görə istənilən yurisdiksiyanın Dövlət Orqanı tərəfindən hal-hazırda və ya istənilən zaman müəyyən edilmiş və ya tutulmuş bütün hazırkı və gələcək Vergiləri ödəməli və ya istənilən istiqraz sahibinin tələbi əsasında əvəzini ödəyir;

(ii) İstiqrazlara əsasən istiqraz sahiblərinə ödəniləcək bütün ödəmələr istənilən Vergilərdən azad və xalis şəkildə, heç bir çıxılma və tutulmalar olmadan həyata keçirilməlidir; buna bazmayaraq, Emitent qanunla və ya başqa cür nəzərdə tutulduğu halda həmin ödəmələri azad və xalis şəkildə, heç bir çıxılma və tutulmalar olmadan həyata keçirmək iqtidarında deyilsə, İstiqrazlara əsasən ödəniləcək əsas məbləğ, faizlər və ya digər məbləğ (tələb olunduğu halda) müvafiq istiqraz sahibinə həmin çıxılmalar və tutulmalar olmadan ötürülməli olan tam məbləğin alınması üçün zəruri olan miqdarda artırılır;

1.18 Öhdəliklərin Yerinə Yetirilməməsi Halları: aşağıdakı hallardan hər hansı biri (bundan sonra hər biri "Öhdəliklərin Yerinə Yetirilməməsi Halı" adlandırılacaqdır) baş verdiyi halda, hər hansı istiqraz sahibinin bildirişi ilə həmin sahibin İstiqrazları əsas məbləğ üzrə və yığılmış faizlərin və müvafiq Əlavə Vaxtından Əvvəl Geri Satın Alma Ödənişinin ödənilməsi ilə Emitent tərəfindən geri satın alınır:

(i) Emitent vaxtı çatanda həmin istiqraz sahibinin İstiqrazları üzrə hər hansı məbləği ödəməzsə və bu cür vəziyyət 7 (yeddi) gün davam edərsə;

(ii) Emitent tərəfindən verilən bəyanatların hər hansı biri bu emissiya prospektinin QKDK tərəfindən qeydiyyat tarixində əhəmiyyətli dərəcədə yanlış və ya yanıldıcı olarsa;

(iii) həmin istiqraz sahibi tərəfindən Emitentə verilən bildirişdən sonra 30 (otuz) gün müddətində hər hansı İltizamın yerinə yetirilməməsi;

(iv) Emitentin Səhmdarlarının Ümumi Yığıncağı Konvertasiya Nisbətinin uyğunlaşdırılmasını və Konvertasiya Səhmlərinin ümumi nominal dəyərini və sayını 1.23 və 2.2-ci bənddə nəzərdə tutulan qaydada təsdiq etməzsə, və ya Emitent hər hansı səbəbdən emissiya prospektinə edilən müvafiq dəyişiklikləri QKDK-də vaxtında qeydiyyata aldırmazsa və ya QKDK həmin dəyişiklikləri qeydiyyata almaqdan imtina edərsə və ya qeydiyyatı əsassız olaraq ləngidərsə;

(v) Bankdan asılı olmayan səbəblərdən emissiya prospektində göstərilən müddətdən Azərbaycan Respublikasının qanunvericiliyi və digər normativ hüquqi aktlarla istiqrazların konversiyası üçün nəzərdə tutulan müddətindən çox olmadığı hal və həmçinin Azərbaycan Respublikası qanunvericiliyi və digər normativ aktlara əsasən, İstiqraz sahiblərinin səhmlərə dair sahiblik hüquqlarının qeydiyyata alındığı hal isitisna olmaqla, emissiya prospektində nəzərdə tutulan şərtlər istiqrazların konversiyası bank tərəfindən icra olunmursa

(vi) hər hansı Dövlət Orqanı Emitentin əmlakının bütöv və ya əhəmiyyətli hissəsini və ya onun digər aktivlərini və ya səhmdar kapitalını özgəninkiləşdirər, milliləşdirər, müsadirə edər və ya başqa cür konfiskasiya edərsə, və ya Emitentin həmin əmlakı və ya digər aktivləri, fəaliyyəti və ya əməliyyatları və ya onun səhm kapitalı üzərində həbs və ya nəzarət müəyyən edərsə, Emitentin səhmləri üzərində nəzarəti əldə edərsə və ya Emitentin ləğv edilməsi üçün hər hansı bir hərəkət edərsə və ya Emitentin və ya onun vəzifəli şəxslərinin öz fəaliyyət və əməliyyatlarını və ya onların əhəmiyyətli hissəsini icra etməsinin qarşısını alan hər hansı hərəkət edərsə;

(vii) Emitenti müflis və ya iflas elan edən və ya onun işlərinin ləğv edilməsini tələb edən məhkəmə tərəfindən Emitentə qarşı qərar qəbul edilərsə; hər hansı tətbiq edilən qanuna əsasən Emitentlə əlaqədar və ya onun yenidən təşkilini, idarə edilməsini, yenidən qurulmasını, tənzim edilməsini, təşkil edilməsini və ləğv edilməsini tələb edən vəsatət təqdim edilərsə; Emitent və ya onun əmlakı və ya aktivlərinin əhəmiyyətli hissəsi üzrə və ya onunla əlaqədar varis, inzibatçı, təsviyyəçi, səlahiyyətli şəxs, müvəkkil edilmiş şəxs, sekvestrator, təmin edilmiş kreditor və buna oxşar vəzifəli şəxs təyin edilərsə; və ya Emitentin müflis və ya iflas elan edilməsi üçün tədbirlər tətbiq edilərsə, və ya ona qarşı müflisləşmə və ya iflaslaşma prosesinin başlanmasına razılıq verərsə, və ya hər hansı tətbiq edilən qanuna əsasən yenidən təşkil, idarə edilmə, yenidən qurulma, tənzim edilmə və ya ləğv edilməni tələb edən vəsatət, cavab və ya razılıq təqdim edərsə, və ya həmin

vəsatətin təqdim edilməsinə və ya onun əmlakı və ya aktivlərinin əhəmiyyətli hissəsi üzrə və ya onunla əlaqədar təyin edilmiş varis, inzibatçı, təsviyyəçi, səlahiyyətli şəxs, müvəkkil edilmiş şəxs, sekvestrator, təmin edilmiş kreditor və buna oxşar vəzifəli şəxsin təyin edilməsinə razılıq verərsə və ya kreditorların xeyrinə hüquqlarını güzəşt edərsə, və ya ümumiyyətlə ödənilməli olan borclarını ödəyə bilməməsi haqqında yazılı bildirərsə; və ya hər hansı tətbiq edilə bilən hüquqa əsasən hazırkı bənddə sadalanmış hallardan hər hansı birinə analoji təsiri olan digər hadisə baş verərsə;

(viii) istiqraz sahibinin əsaslı rəyinə əsasən Emitentin fəaliyyəti üçün əhəmiyyəli hesab edilən hər hansı İcazə Emitentin əməliyyatlarına mənfi təsir göstərəcək dərəcədə dəyişdirilər, dayandırılar, təxirə salınar, ləğv edilərsə və ya yeniləndirilməzsə;

(ix) İstiqrazların Emitentin səhmlərinə konversiyasından irəli gələn hal istisna olmaqla, cənab Eldar Qəribov Emitentin nizamnamə kapitalının 50 (əlli) faizindən artıq hissəsinin (hüquqi və benefisiar) mülkiyyətçisi olmazsa;

(x) Emitentin müqavilə əsasında hər hansı borcu vaxtında ödənilməzsə; və ya əsasında Emitentin borclu olduğu hər hansı müqavilə üzrə hər hansı öhdəlik yerinə yetirilməzsə və bu vəziyyət hər hansı müvafiq möhlətdən çox davam edərsə; və ya hər hansı bu cür borc vaxtından əvvəl ödənilməli olarsa və ya ödənilməsi haqqında tələb irəli sürülərsə; və ya

(xi) hər hansı istiqraz sahibinin əsaslı mülahizəsinə əsasən Əhəmiyyətli Mənfi Təsirə malik olan və ya malik olması ehtimal olunan hər hansı hal və ya şərait baş verərsə;

1.19 İltizamlar:

(i) Müsbət iltizamlar: istiqraz sahiblərinin yazılı şəkildə başqa cür razılaşdırdıqları hallar istisna olmaqla, Son Geri Satın Alma Tarixinədək Emitent hər zaman:

(a) hüquqi şəxs kimi mövcudluğunu və mühasibat və digər sənədlərini qanunvericiliyə uyğun olaraq saxlayacaq;

(b) öz fəaliyyətini diqqətlə və səmərəli quracaq (AMB-nin bütün məcburi qaydaları daxil olmaqla, lakin bununla məhdudlaşmamaqla) və onu sağlam maliyyə və biznes praktikasına, tətbiq edilən hər hansı qanunvericiliyə və ətraf mühiti, sağlamlığı və təhlükəsizliyi nəzərə almaqla aparacaq;

(c) İstiqrazlara əsasən istiqraz sahiblərinə ödənilməli olan bütün pulların köçürülməsi və İcazələr vasitəsilə hazırda icra edilən və ya icra edilməsi nəzərdə tutulan Emitentin fəaliyyətinin icra edilməsi, Emitentə tətbiq edilən bütün şərtlərin və məhdudiyyətlərin icra

edilməsi və müşahidə edilməsi daxil olmaqla İstiqrazlar və onlardan irəli gələb əqdlərin şərtlərinin icra edilməsi üçün zəruri olan bütün İcazələri əldə edəcək və onlara riayət edəcək (və ya müvafiq olduğu halda yeniləyəcək);

(d) beynəlxalq standartlara uyğun olaraq çirkli pulların yuyulmasına, terrorizmin maliyyələşdirilməsinə, dələduzluğa və ya digər korrupsiya xarakterli və qeyri-qanuni hərəkətlərə qarşı yönələn daxili qaydalar qəbul edəcək və onları saxlayacaq;

(e) Emitentin auditoru qismində beynəlxalq nüfuza malik müstəqil auditorlar təyin edəcək və onlara istiqraz sahibləri ilə birbaşa əlaqə saxlamaq səlahiyyəti verəcək;

(f) istiqraz sahiblərini əsaslı olaraq qane edəcək və Emitentin maliyyə vəziyyətini, maliyyə işlərini və nağd pulların hərəkətini və BMHS-na uyğun fəaliyyətinin nəticəsini obyektiv əks etdirən mühasibat və xərclərin tənzimlənməsi sisteminə və idarəçilik üçün informasiya sisteminə malik olacaq;

(g) Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən məcburi qaydada üstünlük verilən öhdəlik və məsuliyyətlər istisna olmaqla, İstiqraz dərəcələrinə əsasən ödənilməsinə üstünlük verilən öhdəliklərinin ən azı onun bütün gələcək və hazırkı təmin edilməmiş öhdəlik və məsuliyyətlərinə (şərti və ya digər qaydada) bərabər olmasını təmin edəcək;

(h) tətbiq edilən hər hansı qanuna və ya qaydaya uyğun olaraq verilməsi tələb olunan bütün Vergi hesabatlarını və dövlət hesabatlarını vaxtında verəcək və, vicdanla və müvafiq prosedur vasitəsi ilə Vergilərin ödənilməsini və hansı adekvat ehtiyatların saxlanılmasını mübahisələndirən hallar istisna olmaqla, bütün gəlir, mənfəət, əmlak və ya fəaliyyətdən irəli gələn vergiləri vaxtında ödəyəcək;

(i) Konvertasiya Tarixinin (a) Konvertasiya Nisbətinin Yenilənməsi Bildirişi ilə birlikdə olduğu halda müvafiq Konvertasiya Hadisəsi Bildirişinin çatdırılmasından 3 (üç) ay sonra; və (b) Konvertasiya Nisbətinin Yenilənməsi Bildirişi ilə birlikdə olmadığı halda Konvertasiya Hadisəsi Bildirişinin çatdırılmasından 1 (bir) ay sonrakı tarixdən gec olmayan tarixə təsadüf etdiyini təmin edəcək; bu şərtlə ki, yuxarıda qeyd edilən (a) və (b) bəndlərinə əsasən son tarixin axırıncı günündən ən azı 7 (yeddi) İş Günü əvvəl, Emitent, müvafiq istiqraz sahibini qane edəcək dərəcədə, onun nəzarətindən asılı olmayan və onun etinasızlığı və ya öhdəliyi pozması ilə əlaqədar olmayan səbəblərə görə son tarixdə müvafiq hərəkətləri icra edə bilməyəcəyini nümayiş etdirərsə, həmin istiqraz sahibi son tarixin müəyyən edilməsi üçün Emitentlə müzakirələr aparmalıdır.

Həmin son tarix heç bir halda Azərbaycan Respublikasının qanunvericiliyinə və ya digər tətbiq edilən qanunvericiliyə əsasən Konvertasiya Səhmləri üzərində sahiblik hüququnun qeydiyyata alınması üçün tələb olunan vaxtdan gec olmamalıdır;

(j) istiqraz sahiblərini qane edəcək şərtlərlə və sığortaçılarla itki, zərər və məsuliyyət sığortasına malik olacaq; və

(k) təmin edəcək ki:

(1) istənilən dividendlərin elan edilməsi və ya ödənilməsi, səhmlərin bölüşdürülməsi, satın alınması, geriyə satın alınması və ya əldə edilməsi konsolidasiya əsasında BMHS uyğun hesablanmış əvvəlki Maliyyə İli üzrə vergilərdən sonra Emitentin xalis mənfəətini üstələmir; və

(2) heç bir Öhdəliklərin Yerinə Yetirilməməsi Halı mövcud deyil və həmin dividendin elan edilməsi və ya ödənilməsi, səhmlərin bölüşdürülməsi, satın alınması, geriyə satın alınması və ya əldə edilməsi heç bir Öhdəliklərin Yerinə Yetirilməməsi Halının yaradılmasına səbəb olmur;

(ii) İnkar xarakterli iltizamlar: istiqraz sahiblərinin yazılı şəkildə başqa cür razılaşdırdıqları hallar istisna olmaqla, Son Geri Satın Alma Tarixinədək Emitent:

(a) aşağıdakılar istisna olmaqla, Emitentin hazırkı və ya gələcək əmlakı, gəliri və digər aktivləri üzərində heç bir formada Yüklülük yaratmayacaq və ya yaradılmasına icazə verməyəcək:

(1) qanunvericilikdən irəli gələn Vergi və ya digər razılaşdırılmamış Yüklülük və ya qanunvericiliyə əsasən və adi ticarət əlaqələri çərçivəsində tətbiq edilən digər Yüklülüklər, bu şərtlə ki, bu Yüklülük (ödənilməmiş məbləğin üzərində yaranan Yüklülük istisna olmaqla) yarandığı gündən sonra 30 (otuz) gün ərzində aradan götürülsün və ya əgər son qərardan sonra 30 (otuz) gün ərzində həmin yüklülüyün etibarlığı və ya məbləği vicdanla və müvafiq prosedur vasitəsi ilə mübahisələndirilirsə və ya bu məbləğin ödənilməsi üçün kifayət qədər ehtiyatlar ayrılmışdırsa;

(2) Emitentin bütün təmin edilmiş borcları ilə topladıqda yoxlanılmış ən son Maliyyə Hesabatına uyğun olaraq Emitentin Ümumi Aktivlərinin 10 (on) faizindən artıq olmayan adi ticarət əlaqələri çərçivəsində yaranan və borcu təmin edən hər hansı Yüklülük; və

(3) hazırkı emissiya prospektinin tarixinədək mövcud olan Yüklülüklər və əlavə edilmiş Cədvəl B-də sadalanan Yüklülülklər (və o şərtlə ki, həmin Yüklülüklər vasitəsilə təmin edilmiş əsas məbləğ artmamışdır)

(b) adi ticarət əlaqələri çərçivəsində, adi kommersiya şərtləri ilə və tərəflərin qərəzsizliyi əsasında bağlananlar istisna olmaqla, hər hansı bir şəxslə (özünün səhmdarları, afilə şirkətləri, işçiləri və ya əlaqəli şirkətləri də daxil olmaqla) əqd bağlamayacaq, və ya əsasında Bankın oxşar əqdlərdəki adi şərtlərə nisbətən daha sərfəli şərtlər təqdim etdiyi və ya az sərfəli şərtlər əldə etdiyi əqdlər bağlamayacaq;

(c) (1) "Unileasing" Lizinq Şirkəti Qapalı Səhmdar Cəmiyyəti və "Unicapital" Açıq Səhmdar Cəmiyyəti tərəfindən göstərilən müvafiq olaraq lizinq və qiymətli kağızların idarə olunması xidmətləri və (2) müvafiq lisenziya əsasında birbaşa Emitent tərəfindən həyata keçirilən sığorta agenti xidmətləri istisna olmaqla, birbaşa və ya Törəmə Cəmiyyəti vasitəsilə bank fəaliyyətindən başqa heç bir fəaliyyətlə məşqul olmayacaq;

(d) öz Nizamnaməsinə hazırkı emissiya prsopektinin müddəaları ilə hər hansı qaydada uyğunluq təşkil etməyən dəyişiklikləri və dəyişikliklər etmək üçün icazələri verməyəcək;

(e) hazırkı emissiya prospektinin tarixindən İstiqrazlara əsasən bütün məbləğlərin tamamilə və qeyd-şərtsiz ödənildiyi tarixədək Ümumi Aktivlərinin (ən son yoxlanmış Maliyyə Hesabatlarında göstərildiyi kimi) (vahid əqd və ya bir neçə növ əqdlərin olub-olmamasında asılı olmayaraq) 10 (on) faizindən çoxunu satmamalı, köçürməməli, icarə verməyəcək və ya başqa cür yerləşdirməyəcək və ya hər hansı birləşmə, əldə etmə konsolidasiya və ya yenidən təşkil etməyə icazə verməyəcək;

(f) öz vəzifəli şəxslərinə, direktorlarına, səlahiyyətli işçilərinə, Asılı Şəxslərinə, agentlərinə və nümayəndələrinə İstiqrazlarla əlaqədar olaraq hər hansı Sanksiyalı Əməllərlə bağlı olan əqdlər bağlamağa icazə və ya səlahiyyət verməyəcək;

(g) fəaliyyətini və ya əməliyyatlarının bütöv və ya bir hissəsinin digər şəxs tərəfindən idarə edilməsinə dair hər hansı kontrakt və ya oxşar müqavilələri bağlamayacaq;

(h) gəlirləri digər şəxs tərəfindən bölüşdürülən və ya bölüşdürülə biləcək əməkdaşlıq, mənfəətin bölüşdürülməsi və ya royalti müqavilələri və ya buna oxşar əqdləri imzalamayacaq;

(i) İstiqrazlara əsasən və ya Emitentin tərəf çıxdığı istənilən müqaviləyə müvafiq olaraq hər hansı istiqraz sahibinin əsaslı rəyinə əsasən Emitenti öz öhdəliklərini icra etməyə mənfi təsir göstərə biləcək hərəkətləri etməyəcək;

(j) Avropa Birliyinin müvafiq siyahılarında yer alan xüsusi qeyd olunan və ya blokadaya məruz qalan şəxslərlə və ya şirkətlərlə və ya Emitentə aid olan digərləri ilə işgüzar əlaqələr yaratmayacaq və ya saxlamayacaq; və ya

(k) Maliyyə ili üçün maliyyə hesabatlarının yoxlanılması zamanına balans dəyərinə və ya I dərəcəli kapitalının 25 faizini aşan bir və ya bir neçə əqdlərə, bilavasitə və ya dolayı yolla sərmayə qoymayacaq.

(iii) Maliyyə iltizamları: istiqraz sahiblərinin yazılı şəkildə başqa cür razılaşdırdıqları hallar istisna olmaqla, Emitent bütün vaxtlarda aşağıdakıları təmin edəcək:

(a) Kapitalın Risk Dərəcəsi üzrə Ölçülmüş Aktivlərə nisbətin 14 (on dörd) faizdən aşağı olmamasını;

(b) İşləməyən kreditlərin xalis dəyəri I dərəcəli kapitala olan dərəcəsi(faizlə ifadəsi) 30 iyun 2011-ci ildən başlayaraq və ondan sonrakı illər üzrə 30% aşmamalıdır;

(c) Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən vaxtlı-vaxtında göstərilən tələbləri icra etmək və prudensial nəzarət əmasallarını tam yerinə yetirmək, Mərkəzi Bankı tərəfindən yazılı şəkildə uyğunsuzluğun aradan qaldırılması halı istisna olmaqla.

(iv) Məlumatla təchiz etmə:

(a) istiqraz sahiblərinin yazılı şəkildə başqa cür razılaşdırdıqları hallar istisna olmaqla, Emitent bütün istiqraz sahiblərini aşağıdakı məlumatla təchiz edir:

(1) mümkün qədər tez, lakin istənilən halda hər bir Maliyyə İlinin hər bir rübünün bitdiyi andan 45 (qırx beş) gün ərzində və vaxtaşırı olaraq istiqraz sahibinin hər bir tələbindən sonra istiqraz sahibini qane edəcək məzmunda və formada:

(A) Emitentin Maliyyə üzrə Direktoru tərəfindən təsdiq edilmiş hər bir rüb üçün Maliyyə Hesabatlarının bir nüsxəsi;

(B) Emitentin bütün zəmanətləri, balansdan kənar və şərti öhdəlikləri;

(C) 1.19(iii) bəndinə əsasən Maliyyə İltizamları ilə uyğunluq baxımından Emitentin Maliyyə üzrə Direktoru tərəfindən təsdiq edilmiş hesablamalar və uyğunluq hesabatı və istənilən uyğunsuzluq üzrə onun səbəblərinin açıqlanması;

(D) hər bir tətbiq edilən kredit kateqoriyasında (korporativ və kiçik kreditlər daxil olmaqla (hər bir halda hər bir kiçik kredit növünün təhlili ilə)) Kreditlərin Ümumi Məbləğinin gecikmələr üzrə təhlili 1-30 gün, 31-90 gün, 91-180 gün və 180+ gün zaman qrupları əsasında hər bir zaman qrupu üzrə gecikdirilmiş ödəmələri olan Kreditlərin Ümumi Məbləğinin (həmin Kreditlərin Ümumi Məbləğləri üzrə ödənilməmiş əsas məbləğlər və onların yığılmış faizləri daxil olmaqla) cəmi göstərilməklə onun təhlili;

(E) həmin rüb ərzində təfsilatı ilə kredit rəqəmləri, həmin kreditlər üzrə ödənilməmiş əsas məbləğlər və AMB və/ və ya BMHS qaydalarına və ya əsasnamələrinə müvafiq olaraq hər bir kredit məhsulunun növü üzrə Emitentin Maliyyə Hesabatlarında yaradılmış və ya yaradılması tələb edilən hər hansı müddəa daxil olmaqla məhsulun növü üzrə Kreditlərin Ümumi Məbləğləri portfelinin təhlili;

(F) Emitentin aktiv və passivlərinin ödəmə müddəti üzrə hesabat (ödəniş cədvəli formasında); və

(G) Emitentin aktiv və passivlərinin xarici valyuta strukturu barədə hesabat;

(2) mümkün qədər tez, lakin istənilən halda hər bir Maliyyə İlinin yarım-illiyinin bitdiyi andan 45 (qırx beş) gün ərzində istiqraz sahibini qane edəcək məzmunda və formada aşağıdakı hesabatlar:

(A) təfsilatlar da daxil olmaqla, Emitentin 20 əsas kredit müştəriləri haqqında hesabat (ödənilməmiş əsas məbləğə əsasən);

(B) təfsilatlar da daxil olmaqla, Emitentin 20 əsas depozit müştəriləri haqqında hesabat; və

(C) təfsilatlar da daxil olmaqla, Emitentin 20 əsas gecikdirilmiş kreditləri haqqında hesabat (ödənilməmiş əsas məbləğə əsasən);

(3) mümkün qədər tez, lakin istənilən halda hər bir maliyyə ilinin birinci dövrü bitdikdən sonra 90 (doxsan) gün ərzində, bu ilin dövrü üçün Maliyyə hesabatlarının bir nüsxəsi auditorlar tərəfindən yoxlanılması.

(4) mümkün qədər tez, lakin istənilən halda hər bir Maliyyə İli bitdikdən sonra 120 (yüz iyirmi) gün ərzində:

(A) istiqraz sahibini qane edəcək formada həmin Maliyyə İli üzrə Maliyyə Hesabatlarının bir nüsxəsi, ardınca ona əlavə edilmiş Auditorların hesabatı və Auditorlar tərəfindən hazırlanmış digər məsələlərlə yanaşı Emitentin maliyyə nəzarəti prodedurlarına və mühasibatlıq sistemlərinə uyğunluğunu şərh edən rəhbərlik üçün məktub (mövcud olduğu halda, nəzərə alaraq ki, Emitent həmin məktubun verilməsini təmin etmək üçün bütün ağlabatan səylərdən istifadə etməlidir);

(B) Emitentin müvafiq Maliyyə İlinin sonunda 1.19(iii)(a) və 1.19(iii)(b) bəndlərində təsbit edilmiş Maliyyə İltizamları ilə uyğunluq təşkil etdiyini təsdiq edən Auditorlar tərəfindən verilmiş hesabat və ya mövcud olduğu halda istənilən uyğunsuzluq haqqında ətraflı məlumat; və

(C) 1.19(i)(j) bəndinə əsasən sığorta tələbləri ilə uyğunluq nümayiş etdirən istiqraz sahibini qane edəcək formada və məzmunda yazılı təsdiq;

(5) mümkün qədər tez, lakin istənilən halda hər bir ayın 10-cu günündən gec olmamaqla, AMB-nin prudensial nəzarət əmsalları ilə uyğunluq haqqında hesabat və AMB üçün hazırlanmış və göndərilmiş həmin əmsallar üzrə hesabatın surəti;

(6) mümkün qədər tez, lakin istənilən halda müvafiq Maliyyə İli başlamazdan ən azı 30 (otuz) gün əvvəl özündə planlaşdırılmış mühasibat balansını, gəlir və xərclər hesabat balansını, ödəmə müddətləri və valyuta cədvəllərini və 1.19(iii) bəndində təsbit edilmiş layihələndirilmiş Maliyyə İltizamları hesablamalarını əks etdirən lakin bununla məhdudlaşmayan Maliyyə İlinin illik büdcəsi ; və

(7) istiqraz sahibinin vaxtaşırı olaraq əsaslı şəkildə tələb edə bildiyi digər məlumatlar;

(b) Emitent aşağıdakılar barədə istiqraz sahiblərini dərhal xəbərdar edir:

(1) istənilən Öhdəliklərin Yerinə Yetirilməməsi;

(2) Emitentin əməliyyatlarında və ya fəaliyyətində təklif edilən mühüm dəyişiklik;

(3) Əhəmiyyətli Mənfi Təsir yaradan və ya yarada biləcək hər hansı hadisə (məhkəmə mübahisəsi, arbitraj və ya inzibati icraat daxil olmaqla, lakin bunlarla məhdudlaşmamaqla);

(4) Maliyyə İlinə və ya mühasibatlıq siyasətinə dair hər hansı dəyişiklik;

(5) şirkət adında hər hansı dəyişiklik və ya hazırkı prospektin tarixində olan şirkət adına əlavə olaraq hər hansı adın (istənilən dildə) qəbul edilməsi;

(6) hər hansı istiqraz sahibindən alınan və ya ona göndərilən vaxtından əvvəl geri satın almahaqqında hər hansı bildiriş; və

(7) müvafiq Faiz Müddəti və ya Cərimə Faiz Müddəti ərzində tətbiq edilən faiz dərəcəsi üzrə istənilən hesablama;

(c) Emitentlə əlaqədar olan, ətraf mühitə, ictimai və ya peşəkar təhlükəsizlik və sağlamlığa əhəmiyyətli mənfi təsir göstərən və ya göstərə biləcək hər hansı hadisə yarandığı zaman Emitent dərhal istiqraz sahiblərini məlumatlandırmalı və bundan sonra dərhal bütün istiqraz sahiblərinə həmin hadisənin xüsusiyyətini müəyyən edən və onun qarşısını almaq üçün Emitentin həyata keçirdiyi hərəkətlər barədə məlumat verən bildiriş verir. Yuxarıda qeyd edilənlərin ümumiliyini məhdudlaşdırmayaraq,

(1) hadisə Emitentin istifadə etdiyi sahədə və ya onun istifadə etdiyi və ya onunla əlaqədar olan vasitələr, avadanlıq, nəqliyyat və ya gəmilər vasitəsilə (Emitentin istifadə etdiyi və ya etmədiyi sahədə, onun səlahiyyətli və ya səlahiyyətsiz nümayəndəsi tərəfindən istifadə edilib və ya edilmədiyindən asılı olmayaraq) baş verdiyi halda, həmin hadisənin Emitentə aidiyyatı olur;

(2) aşağıdakı halda hadisənin ətraf mühitə, ictimai və ya peşəkar təhlükəsizlik və sağlamlığa əhəmiyyətli mənfi təsiri olduğu hesab edilir:

(A) istənilən tətbiq edilən qanunvericilik həmin hadisə barədə Dövlət Orqanına bildiriş verilməsini tələb edir,

(B) həmin hadisə hər hansı şəxsin ölümü ilə nəticələnərsə (həmin şəxsin Emitentlə əmək münasibətində olub-olmamasından asılı olmayaraq),

(C) birdən artıq şəxs xəstəxanaya yerləşdirilməsini tələb edən ciddi xəsarət almışsa (həmin şəxsin Emitentlə əmək münasibətində olub-olmamasından asılı olmayaraq), və ya

(D) həmin hadisə media vasitələri və ya digər yolla ictimaiyyətə açıqlanmış və ya açıqlanması ehtimal olunursa;

(d) Emitent 1.19(ii)(f) bəndinin və ya 1.20(viii) bəndinin pozulması ilə əlaqədar məlumat əldə edərsə və ya istənilən beynəlxalq maliyyə institutu Emitentin Sanksiyalı Əməllərinə hər hansı sanksiya tətbiq edərsə Emitent dərhal bu barədə bütün istiqraz sahiblərini xəbərdar edir. Hər hansı istiqraz sahibi Emitentə 1.19(ii)(f) bəndinin və ya 1.20(viii) bəndinin pozulması ilə əlaqədar öz narahatlığını bildirərsə, bu halda Emitent həmin pozuntunun baş verməsini müəyyən etmək üçün həmin istiqraz sahibi və onun nümayəndəsi ilə vicdanla əməkdaşlıq edir və hər hansı istiqraz sahibinin həmin bildirişini dərhal və ağlabatan təfərrüatı ilə cavablandırır və hər hansı istiqraz sahibinin tələbinə əsasən həmin cavablandırma üzrə bütün dəstəkləyici sənədləşdirmə ilə təchiz edir;

(e) Emitent istənilən istiqraz sahibinin nümayəndəsinə onun fəaliyyət göstərdiyi sahələrə daxil olmaq və onun mühasibat kitablarına və qeydlərinə baxmaq icazəsi verir.

1.20 Bəyanatlar: Emitent aşağıdakıları bəyan edir və zəmanət verir:

(i) Emitentin İstiqrazları buraxmaq və onlar əsasında öz vəzifələrini icra etmək və məsuliyyət daşımaq üçün korporativ hüquq və səlahiyyətlərə malikdir;

(ii) İstiqrazların buraxılışı Emitent tərəfindən lazımi qaydada səlahiyyətləndirilmişdir və İstiqrazlar onların şərtlərinə müvafiq olaraq həyata keçirilən Emitentin həqiqi və qanuni öhdəliklərini təşkil edir;

(iii) İstiqrazların buraxılışı və onların şərtlərinin yerinə yetirilməsi:

(a) Emitentə tətbiq edilən qanunda təsbit edilmiş istənilən müddəa və ya Nizamnamənin pozulması ilə nəticələnməyəcəkdir;

(b) Emitentin tərəfdar çıxıdğı, Emitent və ya onun əmlakının məhdudlaşdırılğı istənilən müqaviləyə və ya alətə əsasən istənilən müddəanın mübahisələndirilməsi və ya pozulması, hər hansı razılığın alınmasının tələb edilməsi və ya hər hansı Yüklülüyün tətbiq edilməsi ilə nəticələnməyəcəkdir; və

(c) hər hansı belə müqavilə və ya alətə əsasən: öhdəliklərin yerinə yetirilməməsini və ya bildiriş verilməsi, vaxtın ötməsi və ya hər hansı qərarın qəbul edilməsi və ya sadalananların bir neçəsi nəticəsində öhdəliklərin yerinə yetirilməməsinə çevriləcək halı - təşkil etməyəcəkdir;

(iv) İstiqrazların buraxılışının, hazırkı emissiya prospektinin və İstiqrazların konvertasiyası nəticəsində hər hansı səhm buraxılışının QKDK-da qeydiyyata alınmasından başqa, İstiqrazların buraxılışı və ondan irəli gələn şərtlərin Emitent tərəfindən yerinə yetirilməsi və ya onların həqiqiliyi və qüvvəyə minməsi üçün heç bir Dövlət Orqanından İcazələrin alınması tələb edilmir;

(v) Azərbaycan Respublikasının qanunlarına əsasən məcburi qaydada üstünlük verilən tələblər istisna olmaqla, İstiqrazlara əsasən Emitentin ödəmə öhdəlikləri səviyyə üzrə onun bütün digər təmin edilməmiş və subordinasiya edilməmiş kreditorlarının tələblərinə ən azı bərabərdir;

(vi) İstiqrazların buraxılışı və yerləşdirilməsi üzrə və ya onların Azərbaycan Respublikasında qanuniliyini, həqiqiliyini, qüvvəyə minməsini, sübut kimi mümkünlüyünü təmin etmək üçün Azərbaycan Respublikasının hər hansı Dövlət Orqanı tərəfindən heç bir Vergi tutulmalı deyil;

(vii) Emitent tərəfdar çıxdığı  və ya özünün və ya əmlakının və ya aktivlərinin məhdudlaşdırıldığı hər hansı əhəmiyyətli müqavilə, öhdəlik və ya vəzifəyə əsasən heç bir öhdəliyi pozmamışdır və heç bir Öhdəliklərin Yerinə Yetirilməməsi halı mövcud deyildir; və

(viii) nə Emitent nə də Emitentin hər hansı vəzifəli şəxsləri, direktorları, səlahiyyətli işçiləri, Asılı Şəxsləri, agentləri və ya nümayəndələri İstiqrazlarla nəzərdə tutulmuş hər hansı əqdə münasibətdə Sanksiyalı Əməllər törətməmişlər;

1.21 Konvertasiya: İstiqrazlar Konvertasiya Hadisələrindən biri baş verdiyi halda 1.25 bəndində müəyyən edilmiş şərtlərlə Konvertasiya Səhmlərinə konversiya edilə bilərlər. Konvertasiya hüququ Konvertasiya Müddətində istənilən zaman istənilən istiqraz sahibi tərəfindən (ancaq müfafiq istiqraz sahibi eyni zamanda Emitentin səhmdarı olduğu halda həyata keçirilə bilən, 1.25(ii) bəndinə əsasən Konvertasiya Hadisəsi ilə əlaqədar konvertasiya hüququ istisna olmaqla) öz mülahizəsi ilə Emitentə Konvertasiya Hadisəsinin baş verdiyini təsdiq edən Konvertasiya Hadisəsi Bildirişinin təqdim edilməsi ilə həyata keçirilə bilər. Konvertasiya

hüququ bir neçə dəfə həyata keçirilə bilər, o şərtlə ki, müvafiq istiqraz sahibi ən azı bir İsiqraza sahib olsun;

1.22 Konvertasiya Müddəti: Bağlanma Tarixindən dərhal sonrakı tarixdən Son Geri Satın Alma Tarixinədək ("Konvertasiya Müddəti") (və istisna olmaqla);

1.23 Konvertasiya Nisbəti: 4 053 (dörd min əlli üç) səhm 1 (bir) istiqraz üçün ("Konversiya Nisbəti"), o şərtlə ki, Konvertasiya Nisbəti hər hansı istiqraz sahibinin tələbi ilə, yazılı bildiriş ("Konvertasiya Nisbətininin Yenilənməsi Bildirişi") təqdim etməklə, aşağıdakı düstur əsasında uyğunlaşdırılır:

KN = (İ/AXD)/S

beləliklə,

KN - Konvertasiya Nisbəti
İ - Konvertasiya Nisbətinin Yenilənməsi Bildirişi tarixindən bilavasitə əvvəlki ayın sonunda AMB-nın rəsmi məzənnəsinə uyğun olaraq manatla ifadə olunan İstiqrazların Nominal Dəyəri
AXD - Bir Səhmə Aktivlərin Xalis Dəyəri

S – İstiqrazların Ümumi Sayı

Konvertasiya Nisbətinin bu cür uyğunlaşdırılması Səhmdarların Ümumi Yığıncağı tərəfindən təsdiq edilməsindən və bu emissiya prospektinə müvafiq dəyişikliklərin QKDK tərəfindən qeydiyyata alınmasından sonra qüvvəyə minir

1.24 Konvertasiya Hadisələri: Konvertasiya Hadisəsi Bildirişi ancaq aşağıdakı hadisələr (hər biri "Konvertasiya Hadisəsi") baş verdiyi halda təqdim edilə bilər:

(i) Emitent tərəfindən istiqraz sahiblərinə təqdim edilməli olan prudensial əmsallar üzrə ardıcıl dörd aylıq hesabatla təsdiq olunduğu kimi, Emitentin ümumi kapital adekvatlığının əmsalı (AMB tərəfindən müəyyən olunduğu kimi) AMB-nin müəyyən etdiyi minimum hədd üstəgəl 200 baza nöqtəsindən aşağı (və daxil olmadan) düşdüyü və 90 (doxsan) gün ərzində bu həddən aşağıda qaldığı halda; və ya

(ii) Emitentin səhmdarlarının yığıncağı nizamnamə kapitalının artırılmasını təsdiq etdiyi halda.

1.25 Konvertasiya hüquqlarının həyata keçirilməsi:

(i) 1.24(i) bəndində nəzərdə tutulan Konvertasiya Hadisəsi baş verdikdə, hər bir istiqraz sahibi öz İstiqrazlarının elə sayını ("İstiqrazların Maksimum Sayı") Konversiya Nisbətində Konvertasiya Səhmlərinə konversiya edə bilər ki, Emitentin ümumi kapital adekvatlığı əmsalının (AMB tərəfindən müəyyən edildiyi kimi) AMB tərəfindən müəyyən edilən minimum səviyyə üstəgəl 300 baza nöqtəsinə bərabər olması, lakin ondan çox

olmamaq şərti ilə, təmin edilsin; lakin bütün istiqraz sahibləri oz konvertasiya hüququnu həyata keçirdiyi halda, İstiqrazların Maksimum Sayı elə azaldılacaq ki, bütün istiqraz sahiblərinin İstiqrazlarının mütənasib hissəsi eyni zamanda konversiya edilsin;

(ii) 1.24(ii) bəndində nəzərdə tutulan Konvertasiya Hadisəsi baş verdiyi halda, əgər hər hansı istiqraz sahibi Emitentin səhmdarıdırsa, istənilən bu cür istiqraz sahibi öz İstiqrazlarının hamısını və ya bir hissəsini Konvertasiya Nisbətində Konvertasiya Səhmlərinə konversiya edə bilər; və

(iii) konvertasiya halında, Emitent müvafiq istiqraz sahibinə konversiya edilən İstiqrazlar üzrə Konvertasiya Tarixinədək ( və istisna olmaqla) toplanmış bütün faizləri və konversiya edilən İstiqrazlar əsasında ödənilməli olan digər məbləğləri ödəyir. Konversiya halında Əlavə Vaxtından Əvvəl Geri Satın Alma Ödənişi ödəmir;

1.26 Bildirişlər: hazırkı emissiya prospektinə əsasən Emitentə və ya istənilən istiqraz sahibinə verilən hər hansı bildiriş, ərizə və digər məlumatlar yazılı şəkildə göndərir. Hazırkı emissiya prospektində başqa cür nəzərdə tutulmadığı halda, həmin bildiriş, ərizə və digər məlumatlar əldən, hava poçtu, faksimil və ya elektron poçtu ilə: (a) Emitent üçün, Emitentin aşağıda göstərilmiş ünvanına və ya Emitent tərəfindən həmin bildiriş, ərizə və ya digər məlumatı göndərmək üçün istiqraz sahibinə bildiriş vasitəsilə müəyyən etdiyi digər ünvana və (b) hər hansı istiqraz sahibi üçün, istiqraz sahibinin mümkün qədər tez, lakin Bağlanma Tarixindən sonra 5 (beş) İş Günü ərzində və vaxtaşırı olaraq Emitentə bildiriş vasitəsilə müəyyən etdiyi ünvana göndərildiyi zaman lazımi qaydada çatdırılmış hesab edilir.

Emitent üçün:

Unibank Kommersiya Bankı
Rəşid Behbudov küçəsi 55
Bakı AZ1022
Azərbaycan

Kimə: Faiq Hüseynov, İdarə Heyətinin Sədri
Faks: +994 12 498 09 53
E-poçt: bank@unibank.az

Emitent yuxarıdakı əlaqə məlumatlarında hər hansı dəyişiklik barədə bütün istiqraz sahiblərini dəyişikliyin baş verdiyi andan 5 (beş) İş Günü müddətində xəbərdar edir.

1.27 Maliyyə hesablamaları: hazırkı emissiya prospektinə əsasən və ya onun məqsədləri üçün aparılan bütün maliyyə hesablamaları müafiq şəkildə tətbiq edilən BMHS-ə uyğun olmalıdır və Cədvəl A-da və ya hazırkı emissiya prospektinin digər müddəalarında təsbit edilmiş qaydalarda başqa cür tələb edilən hal istisna olmaqla, 1.19(iv)(a)(1) bəndinə əsasən Emitent tərəfindən istiqraz sahiblərinə vaxtaşırı

olaraq təqdim etməli olduğu ən son buraxılan rüblük Maliyyə Hesabatlarını istifadə etməlidir, lakin, buna baxmayaraq:

(i) müvafiq Maliyyə Hesabatları Maliyyə İlinin birinci yarısı və ya Maliyyə İlinin sonuncu rübü üçün tərtib edilməlidirsə o zaman istənilən istiqraz sahibinin seçiminə əsasən həmin hesablamalar müvafiq Maliyyə İli üzrə nəzərdən keçirilmiş ilin birinci yarısı üçün və ya audit aparılmış Maliyyə Hesabatları əsasında aparıla bilər;

(ii) müvafiq Maliyyə Hesabaltları ilə əhatə edilmiş müddətin bitməsindən sonra Emitentin maliyyə vəziyyətində əhəmiyyətli mənfi dəyişiklik yaranarsa, o zaman həmin əhəmiyyətli mənfi dəyişiklik müvafiq rəqəmlərin hesablanması zamanı nəzərə alınır; və

(iii) hazırkı emissiya prospektində istinad edilmiş AMB-nin prudensial nəzarət əmsallarının bütün maliyyə hesablamaları Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən aparılır;

1.28 Dil: hazırkı emissiya prospektinə əsasən təchiz edilməli bütün sənədlər və ya məlumatlar (a) Azərbaycanlı istiqraz sahibinə verilirsə, Azərbaycan dilində olmalı və ya (b) xarici istiqraz sahibinə verilirsə ingilis dilində olmalı və ya digər dildə verilirsə Emitent tərəfindən təsdiq edilmiş və emitent və həmin istiqraz sahibi arasında əsas versiya hesab edilən ingilis dilinə tərcüməsi ilə birlikdə təqdim edir;

1.29 Tənzimləyici hüquq: İstiqrazlar və onlardan və ya onlarla əlaqədar yaranan istənilən öhdəliklər Azərbaycan qanunlarına əsasən tənzim və təfsir edilir;

1.30 Mübahisələrin həlli:

(i) (1) İstiqrazlar, (2) onların şərtlərinin pozulması, bitməsi və ya etibarsızlığı və ya (3) İstiqrazlardan və ya onlarla əlaqədar olaraq yaranan qeyri-müqavilə öhdəliklərindən irəli gələn istənilən mübahisə, ziddiyyət və ya iddia BTHBMK-nın hazırda qüvvədə olan Arbitraj Qaydalarına müvafiq olaraq arbitraj qaydasında həll edilir. Orada bir arbitr olacaqvə təyin edən orqan BALM – dır. (Beynəlxalq Arbitraj üzrə London Məhkəməsi). Arbitraj İngiltərə, London şəhərində keçirilməli və proses zamanı ingilis dilindən istifadə edilir. Tərəflər bununla, Birləşmiş Krallığının 1996-cı il Arbitraj Aktına əsasən və ya digər yolla İngiltərə məhkəmələrində istənilən arbitraj qərarına qarşı apelyasiya şikayəti vermək və ya hüquqi normanı araşdırmaq hüququndan imtina edirlər. BTHBMK Arbitraj Qaydaarının heç bir müddəasına baxmayarq, Arbitraj məhkəməsinin Emitentin hər hansı istiqraz sahibinə qarşı müvəqqəti müdafiə tədbirləri və ya hüquq müdafiə vasitələrini qəbul etmək və ya təmin etmək səlahiyyəti yoxdur və Emitent hər hansı məhkəmə vasitəsilə bunları təqib etmir. Arbitraj məhkəməsinin müvafiq istiqraz sahibi tərəfindən (heç bir digər tərəf olmadan) sonradan qaldırılmış mübahisəni istənilən iddia, qətnamə və ya qərara daxil etmək və ya nəzərə almaq səlahiyyəti vardır, o şərtlə ki, həmin mübahisə İstiqrazlara əsasən qaldırılmışdır, lakin, yuxarıda qeyd edilənləri

nəzərə alaraq heç bir digər tərəf və ya digər mübahisə arbitraj prosesinə daxil etmir və ya birləşdirilmir. İstənilən arbitraj prosesində, müvafiq istiqraz sahibinin İstiqrazlara əsasən ona ödənilmir olan hər hansı məbləğ üzrə şəhadətnaməsi həmin məbləğin şübhəsiz sübutu hesab edilmir.

(ii) 1.30(i) bəndinə baxmayaraq, İstiqraz şərtləri və İstiqrazlardan irəli gələn və ya onlarla əlaqəli olan (a) hər hansı xarici istiqraz sahibinin hər hansı hüquqları, müvafiq istiqraz sahibinin seçiminə əsasən həmin istiqraz sahibi tərəfindən İngiltərə və ya yurisdiksiyası olan digər məhkəmə vasitəsilə və (b) hər hansı Azərbaycanlı istiqraz sahibinin hər hansı hüquqları, müvafiq istiqraz sahibinin seçiminə əsasən həmin istiqraz sahibi tərəfindən Azərbaycan Respublikasının məhkəmələri vasitəsilə təmin edilə bilər. İstənilən istiqraz sahibinin faydası üçün, Emitent bununla İstiqrazlardan irəli gələn istənilən mübahisə, ziddiyyət və ya iddia və onlarla əlaqədar olan pozuntu, bitirmə və ya etibarzızlıqla əlaqədar qeyd-şərtsiz İngiltərə məhkəmələrinin qeyri-müstəsna yurisdiksiyasına tabe olur. Emitent bununla İstiqrazlarla əlaqədar olaraq istənilən istiqraz sahibi tərəfindən qaldırılan hər hansı qanuni hərəkət və ya proseslər üzrə bildiriş və ya digər qanuni vəsatətləri qəbul etmək üçün "Law Debenture Corporate Services Limited" şirkətini qeydiyyatdan keçmiş ofisində (burada qeyd edilmiş tarixdə, 100 Wood Street, London, EC2V 7EX, İngiltərə ünvanında yerləşir) onun səlahiyyətli agenti qismində hərəkət etmək üçün təyin edir. Emitent bununla həmin məhkəmələrin bildiriş və ya digər qanuni vəsatətlərinin onun burada müəyyən edilmiş ünvanına əvvəlcədən ödənilmiş hava poçtu vasitəsilə göndərilməsinə razılıq verir. Emitent bununla razılaşır ki, İstiqrazlara əsasən hər hansı öhdəliyi olduğu müddətdə, İstiqrazlara əsasən istənilən istiqraz sahibi tərəfindən İngiltərədə qaldırılan hər hansı qanuni hərəkət və ya proseslərlə əlaqədar bildiriş və digər qanuni vəsatətləri qəbul etmək üçün lazımi qaydada təyin edilmiş agentini saxlayacaqdır və həmin agentin kimliyi və yeri barədə istiqraz sahiblərini məlumatlandıracaqdır. Burada göstərilənlərin heç biri istiqraz sahibinin istənilən müvafiq yurisdiksiyanın qanunları ilə təsbit edilmiş istənilən qaydada Emitentə qarşı qanuni hərəkət və ya proseslərə başlamaq hüququna mənfi təsir göstərmir. Hər hansı istiqraz sahibi tərəfindən bir və ya bir neçə yurisdiksiyalarda hüquqi hərkətlərin və ya icraatların başlanması həmin istiqraz sahibini eyni zamanda olub-olmamasından asılı olmayaraq digər istənilən yurisdiksiyada hüquqi hərkət və ya icraat başlamaqdan məhrum etmir. Emitent bununla hal-hazırda və sonra yarana biləcək istənilən əsaslarla hər hansı hüquqi hərəkətin və ya icraatın yerləşməsinə qarşı etirazdan və ya həmin hüquqi hərəkət və ya icraatın əlverişsiz yerdə qaldırılmasına qarşı istənilən iddialardan qeyd-şərtsiz imtina edir.

2. **İstiqrazların konversiya ediləcəyi sənədsiz adlı adi səhmlərin ("Konvertasiya Səhmlər") əsas şərtləri:**

2.1 Hər səhmin nominal dəyəri: 2,16 AZN;

2.2 Konvertasiya Səhmlərinin ümumi nominal dəyəri və sayı: ümumi nominal dəyəri 21 886 200,00 (iyirmi bir milyon səkkiz yüz səksən altı min iki yüz) AZN olan 10 132 500 (on milyon  yüz otuz iki min beş yüz) səhm. Konvertasiya Səhmlərinin ümumi nominal dəyəri və sayı Konvertasiya Nisbətinin 1.23 bəndində nəzərdə tutulan qaydada uyğunlaşdırılması ilə birlikdə Səhmdarların Ümumi Yığıncağı tərəfindən uyğunlaşdırılır;

2.3 Hər bir səhmə aid olan hüquqlar:

(i) Emitentin idarə edilməsində iştirak etmək, onun idarəetmə və icra orqanlarına seçmək və seçilmək;

(ii) Emitentin fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və mühasibat balansı ilə tanış olmaq;

(iii) Emitentin Səhmdarlarının Ümumi Yığıncağının çağırılmasını tələb etmək;

(iv) Emitentin Səhmdarlarının Ümumi Yığıncağının gündəliyində dəyişikliklərin edilməsini tələb etmək;

(v) Emitentin Səhmdarlarının Ümumi Yığıncağında səsvermə hüququ ilə iştirak etmək və onun protokolunun surətini tələb etmək;

(vi) Emitentin fəaliyyətinin auditor tərəfindən yoxlanılmasını tələb etmək;

(vii) Emitentin xalis mənfəətindən dividend almaq;

(viii) Emitentin fəaliyyətinə xitam verildikdə, Emitentin kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər ödənildikdən sonra Emitentin yerdə qalan əmlakının müəyyən hissəsini almaq;

(ix) Emitentin nizamnamə kapitalının artırılmasında iştirak etmək; və

(x) Azərbaycan Respublikasının qanunvericiliyi və Nizamnamə ilə nəzərdə tutulmuş hallarda digər hüquqlar;

2.4 Emitentin Konvertasiya Səhmləri sahibləri qarşısında öhdəlikləri:

(i) kommersiya sirri və ya məxfi hesab olunan məlumatları üçüncü şəxslərə açıqlamamaq;

(ii) səmdarların reyestrində ona dair daxil edilmiş məlumatların dəyişilməsi barədə reyestr saxlayıcısına on təqvim günü ərzində yazılı bildiriş vermək; və

(iii) Azərbaycan Respublikasının qanunvericiliyi və Nizamnamə ilə nəzərdə tutulmuş hallarda digər öhdəliklər;

2.5 Qeydiyyat barədə: Konvertasiya Səhmlərinin buraxılışı və emissiya prospekti bilavasitə konvertasiyadan qabaq QKDK-də qeydiyyata alınacaq.

## C Yekun müddəalar

1. İstiqrazlar Bakı Fond Birjası vasitəsilə yerləşdiriləcək;

2. Bu emissiya prospektinin qeydiyyatından sonra 2 (iki) İş Günündən gec olmayaraq Emitent Emitentin (www.unibank.az) və Bakı Fond Birjasının (www.bse.az) rəsmi internet səhifələrində İstiqrazların emissiyası haqqında elanı və onların yerləşdirilməsi müddətini elan edir və bu emissiya prospketində olan məlumatları açıqlayır.

3. İstiqrazların yerləşdirilməsi bu emissiya prospektində olan məlumatların açıqlanması başlandığı tarixdən etibarən 6-cı (altıncı) İş Günündə başlayır və yerləşdirmənin başlamasından etibarən 7-ci (yeddinci) İş Günündə başa çatır;

4. İstiqrazları əldə etmək niyyətində olan istənilən investor İstiqrazların yerləşdirilməsində iştirak edən təşkilata (anderrayter) və ya broker və ya diler fəaliyyətini həyata keçirmək üçün lisenziyaya malik olan Bakı Fond Birjasının istənilən üzvünə müraciət edə bilər;

5. İstiqrazların yerləşdirilməsində iştirak edəcək anderrayter haqqında məlumat: «Unicapital» Açıq Səhmdar Cəmiyyəti (Bakı şəhəri, R.Behbudov küçəsi, 57), (i) diler fəaliyyətini həyata keçirməyə icazə verən 23 yanvar 2008-ci il tarixli, 88 №-li lisenziya (quvvədə olma müddəti 5 il) və (ii) broker fəaliyyətini həyata keçirməyə icazə verən 23 yanvar 2008-ci il tarixli, 87 №-li lisenziya. (quvvədə olma müddəti 5 il);

6. İstiqraz sahiblərinin reyestrinin aparılması Bül-bül prospekti, 17 ünvanında yerləşən "Milli Depozit Mərkəzi" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən həyata keçiriləcək (qiymətli kağız sahiblərinin reyestrinin aparılması üzrə fəaliyyəti həyata keçirməyə icazə verən 12 fevral 2010-cu il tarixli 110 №-li lisenziya. Lisenziyanın qüvvədə olma müddəti 5 il);

7. İstiqrazların saxlanması və onlara hüquqların uçotu Bül-bül prospekti, 17 ünvanında yerləşən "Milli Depozit Mərkəzi" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən həyata keçiriləcək (15 fevral 2000-ci il tarixli, 1№-li, müddətsiz "Depozitar fəaliyyətin həyata keçirilməsi" lisenziyası).

## CƏDVƏL A

1. **Müəyyən edilmiş terminlər**. Hazırkı emissiya prospektinin B və C Bölmələrində və hazırkı Cədvəl A-da istifadə edildiyi kimi aşağıdakı terminlər aşağıdakı mənaları ifadə edir:

| | |
|---|---|
| "Əlavə Vaxtından Əvvəl Geri Satın Alma Ödənişi" | 1.14(i) bəndində təsbit edildiyi kimi Emitent tərəfindən ödəniləcək İstiqrazların Nominal Dəyərinin 5 (beş), 7,5 (yeddi tam onda beş) və ya 10 (on) faizi deməkdir. |
| "Asılı Şəxs" | istənilən şəxslə əlaqədar olaraq, birbaşa və ya dolayı yolla nəzarət edilən, nəzarət edilmiş və ya ümumi nəzarətdə olan digər istənilən şəxs deməkdir. |
| "Auditorlar" | Emitentin vaxtaşırı olaraq öz auditorları qismində təyin etdiyi beynəlxalq səviyyəli müstəqil audit şirkəti deməkdir. |
| "İcazə" | istənilən Dövlət Orqanı tərəfindən verilən və ya imtina edilən, və ya müəyyən edilmiş hər hansı müddət ərzində hər hansı hərəkəti etməməklə verilmiş və ya imtina edilmiş hesab edilən razılıq, qeydiyyat, ərizə, müqavilə, notarius təsdiqi, şəhadətnamə, lisenziya, təsdiq, icazə, səlahiyyət və ya azad olunma və istənilən korporativ, kreditorlar və ya səhmdarlar razılığı və ya təsdiqi deməkdir; |
| "AZN" | Azərbaycan Respublikasının qanuni valyutası deməkdir. |
| "Bazel Kapital Sazişi" | vaxtaşırı olaraq dəyişikliklərlə birlikdə, 2004-cü ilin iyun ayında Bank Nəzarəti üzrə Bazel Komitəsi tərəfindən nəşr edilmiş "Kapital Parametrləri və Normativlərinin Beynəlxalq Uyğunlaşması, Yenilənmiş Çərçivə" üzrə hesabat deməkdir. |
| "İstiqrazlar" | 1-ci bənddə təsbit edilmiş mənanı ifadə edir |
| "İş Günü" | Bakıda adi fəaliyyət üçün kommersiya banklarının açıq olduğu gün, lakin İstiqrazlara əsasən hər hansı ödənişlə əlaqədar, Nyu-Yorkda və Londonda adi fəaliyyət üçün kommersiya banklarının açıq olduğu gün deməkdir. |
| "Kapital" | Emitentin 1-ci Dərəcəli Kapitalının və 2-ci Dərəcəli Kapitalının cəmi deməkdir. |
| "Nizamnamə" | Emitentin nizamnaməsi deməkdir. |
| "AMB" | Azərbaycan Respublikasının Mərkəzi Bankı deməkdir. |

| | |
|---|---|
| "Bağlanma Tarixi" | İstiqrazlara mülkiyyət hüququnun istiqraz sahiblərinə 1.7 bəndinə müvafiq olaraq ötürüldüyü tarix deməkdir. |
| "Zorakılıq Əməlləri" | ziyan və ya zərər, bilavasitə və ya dolayı yolla tərəfə və ya onun əmlakına vurulan və ya onun fəaliyyətinə mənfi təsir göstərən ziyan və ya zərər təhlükəsi deməkdir. |
| "Gizlin Sözləşmə Əməlləri" | digər tərəfin hərəkətinə mənfi təsir göstərmək də daxil olmaqla, yanlış məsdəqlərə nail olmaq üçün iki və ya daha çox tərəflər arasında təşkil edilmiş işlər deməkdir. |
| "Əlaqəli Şəxs" | istənilən şəxsə münasibətdə aşağıdakılar deməkdir:<br>(a) həmin şəxs;<br>(b) həmin şəxs fiziki şəxsdirsə, onun həyat yoldaşı, valideynləri, bacı və qardaşları və uşaqları;<br>(c) şəxsin direktorlar və ya müşahidə şurasının və ya idarə heyətinin istənilən üzvü, həmin şəxsin birbaşa və ya dolayı yolla səsli səhmlərinin 20 (iyirmi) faizinə sahib olan istənilən şəxs (həmin şəxs fiziki şəxsdirsə onun həyat yoldaşı, valideynləri, bacı və qardaşı və usaqları da daxil olmaqla);<br>(d) istənilən şəxs, hansının ki 20 (iyirmi) faiz səhmləri bir başa və ya dolayı yolla yuxarıda (a), (b) və (c) bəndində qeyd edilmiş şəxslərə mənsubdur və ya onlar tərəfindən nəzarət edilir; və<br>(e) istənilən şəxs, hansının ki, idarəetmə və ya rəhbər orqanlarında yuxarıda (a), (b) və (c) bəndində qeyd edilmiş şəxslərdən hər hansı biri hər hansı vəzifəni tutur. |
| "Konvertasiya Hadisəsi" | 1.24 bəndində təsbit edilmiş mənanı ifadə edir. |
| "Konvertasiya Hadisəsi Bildirişi" | istənilən istiqraz sahibi vasitəsilə 1.21-1.25 bəndlərinə əsasən konvertasiya hüquqlarını həyata keçirdiyi Qoşma A-da forması təsbit edilmiş bildiriş deməkdir. |
| "Konvertasiya Müddəti" | 1.22 bəndində təsbit edilmiş mənanı ifadə edir. |

| | |
|---|---|
| "Konvertasiya Nisbəti" | 1.23 bəndində təsbit edilmiş mənanı ifadə edir. |
| "Konvertasiya Nisbətinin Yenilənməsi Bildirişi" | 1.23 bəndində təsbit edilmiş mənanı ifadə edir. |
| "Konvertasiya Tarixi" | tətbiq edilən qanuna əsasən tələb edildiyi kimi konvertasiya hüququnun həyata keçirilməsi nəticəsində müvafiq istiqraz sahibinin adına Konvertasiya Səhmlərinə mülkiyyət hüququnun lazımi qaydada qeydiyyata alınması tarixi deməkdir. |
| "Konvertasiya Səhmləri" | 2-ci bənddə təsbit edilmiş mənanı ifadə edir. |
| "Korrupsiya Əməlləri" | digər tətəfin hərəktlərinə birbaşa və ya dolayı yolla mənfi təsir göstərən təklif, bağışlama, qəbul etmə və ya tələb deməkdir. |
| "İltizamlar" | 1.19 bəndində təsbit edilmiş iltizamlardan hər hansı biri deməkdir. |
| "Öhdəliklərin Yerinə Yetirilməməsi" | Öhdəliklərin Yerinə Yetirilməməsi halı və ya bildiriş verilməsi, vaxtın keçməsi, hər hansı qərarın çıxarılması, və ya yuxarıdakıların bir neçəsi nəticəsində Öhdəliklərin Yerinə Yetirilməməsi halına çevriləcək hal. |
| "Cərimə Faizinin Müəyyən Edilməsi Tarixi" | müvafiq Cərimə Faiz Müddətinin birinci günündən iki London Bank Günü əvvəl gələn gün deməkdir. |
| "Cərimə Faiz Müddəti" | İstiqrazlara əsasən ödənilməli olan lakin gecikdirilmiş hər hansı məbləğlə əlaqədar olan həmin ödəmənin icra edilməli olduğu gündə və ya tələb olunduğu halda, həmin ödəniləcək məbləğlə əlaqədar olaraq əvvəlki Cərimə Faiz Müddətinin axırıncı günü başlanan və müvafiq istiqraz sahibi tərəfindən seçilmiş İş Günündə bitən müddət deməkdir. |
| "Öhdəliklərin Yerinə Yetirilməməsi Halı" | 1.18 bəndində təsbit edilmiş mənanı ifadə edir. |
| "Risk" | bir və ya bir neçə qarşı tərəflərə münasibətdə hər hansı hesablama vaxtında aşağıdakılar deməkdir:<br>(a) borca götürülmüş pul, cəlb edilmiş kapital və ya borc, verilmiş və ya təsdiq edilmiş qarantiyalar, akkreditivlər və borc alətləri və digər balansdan |

kənar öhdəliklər münasibətdə Bir Şəxsin Emitentə borclu olduğu məcmu əsas və ya nominal, birbaşa və ya şərti, məbləğ;

(b) (a) bəndində istinad edilmiş və (i) nağd pul və/və ya (ii) depozitlər və/və ya (iii) Azərbaycan Respublikasının hökuməti və ya Mərkəzi Bankı tərəfindən veilmiş qiymətli kağızlara qarşı əvəzləşdirmə hüququ ilə tamamilə təmin edilən istənilən məbləğ; yuxarıda qeyd edilmiş təminat formaları bərabər məbləğdə və ödənilmə müddəti ilə Emitentə verildiyi halda.

"Son Geri Satın Alma Tarixi" — Bağlanma Tarixinin 5-ci ildönümünə təsadüf edən və ya bilavasitə ondan sonra gələn birinci Faiz Ödənilməsi Tarixi deməkdir.

"Maliyyə Hesabatları" — müvafiq qaydada tətbiq edilmiş, Emitent tərəfindən BMHS-na əsasən hazırlanmış birləşdirilmiş maliyyə hesabatları (balans hesabatı, gəlir və xərclər hesabatı, kapitalda dəyişiklik hesabatı, pul vəsaitlərinin hərəkəti hesabatı, əhəmiyyətli mühasibatlıq siyasətinin icmalı haqqında qeydlər və digər izahedici qeydlər də daxil olmaqla) deməkdir.

"Maliyyə İli" — Yanvarın 1-də başlayan və Dekabrın 31-də bitən və ya Emitent tərəfindən vaxtaşıqı olaraq, maliyyə ili kimi müəyyən edilmiş digər müddət deməkdir.

"Dələduzluq Əməlləri" — bilərəkdən və ya kobud səhlənkarlıq nəticəsində tərəfi maliyyə və ya digər mənfəəti əldə etməyə və ya öhdəliyi icra etməməyə sövq edən və ya sövq etməyə cəhd göstərən hərəkət və ya etinasızlıq, habelə qeyri-düzgün təqdimat deməkdir.

"Dövlət Orqanı" — hər hansı ölkənin və ya onun siyasi bölməsinin dövlət, regional və ya yerli hakimiyyəti və icra, qanunverici, hüquqi, vergi, tənzimləyici və inzibati hüquqları və ya funksiyaları tətbiq edən istənilən agentlik, orqan, filial, department, tənzimləyici orqan, məhkəmə, mərkəzi bank və ya digər orqan və ya dövlətə məxsus olan orqan və ya onun hər hansı bölməsi (hər hansı beynəlxalq orqanlar daxil olmaqla) və yuxarıda qeyd edilənlərin bütün rəsmiləri, agentləri və nümayəndələri deməkdir.

"Kreditlərin Ümumi Məbləği" — hər hansı Kredit İtkiləri Ehtiyatları üzrə çıxmalardan əvvəl, adi qaydada Emitent tərəfindən onun öz müştərilərinə (banklar istisna olmaqla) verilmiş bütün

kredit vasitələrinin ümumi əsas məbləği deməkdir.

"BMHS" Beynəlxalq Mühasibatlıq Standartları Şurası tərəfindən qəbul edilmiş və müvafiq şəkildə tətbiq edilən Beynəlxalq Maliyyə Hesabatlığı Standartları deməkdir.

"Banklararası Dərəcə" aşağıdakılar deməkdir:

(a) birinci Faiz Müddəti üzrə illik depozitlər üçün ABŞ Dollarında təklif edilən və Faiz Müddətinə bərabər olan müddət üçün müvafiq Faizin Müəyyən Edilməsi Tarixində, İstinad Səhifəsində London vaxtı ilə səhər saat 11:00-da açıqlanan illik dərəcələr (və ya hər iki müddətlər həmin Faiz Müddətinə bərabər şəkildə yaxındırsa, o zaman iki müvafiq dərəcələrin ortaq dərəcəsi);

(b) hər bir növbəti Faiz Müddəti üzrə illik depozitlər üçün ABŞ Dollarında təklif edilən və Faiz Müddətinin davamlılığına ən yaxın olan müddət üçün müvafiq Faizin Müəyyən Edilməsi Tarixində, İstinad Səhifəsində London vaxtı ilə səhər saat 11:00-da açıqlanan illik dərəcələr (və ya hər iki müddətlər həmin Faiz Müddətinə bərabər şəkildə yaxındırsa, o zaman iki müvafiq dərəcələrin ortaq dərəcəsi)

(c) hər hansı Cərimə Faiz Müddəti üzrə, illik depozitlər üçün ABŞ Dollarında təklif edilən və həmin Cərimə Faiz Müddətinin davamlılığını bərabərləşdirən müddət üçün müvafiq Cərimə Faizinin Müəyyən Edilməsi Tarixində İstinad Səhifəsində London vaxtı ilə səhər saat 11:00-da açıqlanan illik dərəcələr (və ya hər iki müddətlər həmin Cərimə Faiz Müddətinə bərabər şəkildə yaxındırsa, o zaman iki müvafiq dərəcələrin ortaq dərəcəsi).

bu şərtlə ki, əgər hər hansı bir səbəbdən, Banklararası Dərəcə İstinad Səhifəsinə əsasən həmin vaxtda müəyyən edilə bilməzsə, həmin Faiz Müddəti və ya Cərimə Faiz Müddəti üzrə Banklararası Dərəcə Emitentə Londonun banklararası bazarında iki əsas bank tərəfindən təqdim edildiyi kimi Londonun banklararası bazarında rəhbər banklara istinad edilmiş həmin Faiz Müddətinə və ya Cərimə Faiz Müddəti bərabər olan müddət üzrə həmin Faiz Müddəti ərzində ödənilməmiş İstiqrazlara müqayisə olunacaq məbləğdə ABŞ Dolları ilə depozitlər üçün

təklif edilən illik dərəcələr üzrə Emitent tərəfindən arifmetik qaydada müəyyən edilmiş illik dərəcə olmalıdır.

| | |
|---|---|
| "Faizin Müəyyən Edilməsi Tarixi" | hər hansı Faiz Müddəti üzrə həmin Faiz Müddətinin birinci birinci günündən iki London Bank Günü əvvəl gələn gün deməkdir. |
| "Faizin Ödənilməsi Tarixi" | istənilən ildə 15 aprel və 15 oktyabr olan gündür, lakin, buna baxmayaraq, hər hansı Faizin Ödənilməsi Tarixi İş Günü olmayan günə təsadüf edərsə, həmin Faizin Ödənilməsi Tarixi həmin təqvim ayında növbəti gələn İş Günü ilə dəyişdirilməlidir və ya əgər həmin təqvim ayında növbəti İş Günü mövcud deyilsə, bilavasitə ondan əvvəl gələn İş Günü ilə əvəz edilməlidir. |
| "Faiz Müddəti" | Satın Alma Tarixində başlayan (daxil olmaqla) və növbəti Faizin Ödənilməsi Tarixində bitən müddət və müvafiq olaraq hər biri Faizin Ödənilməsi Tarixində başlayan və növbəti Faizin Ödənilməsi Tarixində bitən müddət deməkdir, bu şərtlə ki, Satın Alma Tarixi növbəti Faizin Ödənilməsi Tarixindən əvvəl 15 İş Günündən az müddətə təsadüf edərsə, birinci Faiz Müddəti Satın Alma Müddətində başlamalı və növbəti Faizin Ödənilməsi Tarixindən sonrakı Faizin Ödənilməsi Tarixində bitməlidir. . |
| "Yüklülük" | istənilən sığorta siyasətinə əsasən, istənilən xərcləri ödəyən şəxslər və ya benefesiarların təyin edilməsi və ya istənilən buna oxşar təyin etmələr daxil olmaqla, istənilən hazırkı və ya gələcək kapitallar, gəlirlər və ya hüquqlarla əlaqədar istənilən təqdim edilən təminat və ya onlarla əlaqədar istənilən ayırma və ya preferensial tənzim etməyə təsir göstərən istənilən girov, ipoteka, tutulma, imtiyaz, üstünlük, ipoteka girovu, yüklülük, təyin etmə, girov hüququ, birləşmə, əvəz etmə və istənilən növdə təminat hüquqları və ya digər müqavilələr və ya tənzim etmələr deməkdir. |
| "Kredit İtkiləri üzrə Ehtiyatlar" | BMHS –na əsasən Kreditlərin Ümumi Məbləğinə qarşı ayrılması tələb edilən ehtiyatlar. |
| "Yerli Səhmdarlar" | cənab Eldar Qəribov, cənab İqor Yakovenko və cənab Emin Quliyev deməkdir. |
| "London Bank Günü" | İngiltərə, Londonda ümumi fəaliyyət üçün kommersiya banklarının açıq olduğu gün (xarici valyuta və xarici valyuta depozitləri ilə əlaqədar işlər də daxil olmaqla) |

deməkdir.

| | |
|---|---|
| "Əhəmiyyətli Mənfi Təsir" | aşağıdakılar üzərində maddi mənfi təsir deməkdir:<br><br>(a) Emitentin İstiqrazlara əsasən özünün istənilən öhdəliklərini icra etmək və yerinə yetirmək qabiliyyəti deməkdir;<br><br>(b) İstiqrazların qanuniliyi, etibarlılığı, tətbiqi və məcburi xarakteri və ya İstiqrazlara əsasən istiqraz sahibinin qanuni hüquqları, vaitələri və üstünlükləri; və ya<br><br>(c) Emitentin fəaliyyəti, əməliyyatları, maliyyə şəraiti və güman edilən müştəriləri.. |
| "Aktivlərin Xalis Dəyəri" | Konvertasiya Nisbətinin Yenilənməsi Bildirişi tarixində əldə edilə bilən ən son BMHS-na əsasən yoxlanmış maliyyə hesabatlarına əsasən hesablanmış, Konvertasiya Nisbətinin Yenilənməsi Bildirişindən əvvəl gələn ayın sonu daxil olmaqla həmin BMHS-na uyğun yoxlanmış maliyyə hesabatlarının tarixindən sonrakı müddət ərzində xalis gəlir və yığılmış xərclər üzrə uyğunlaşdırılmış Emitentin aktivlərinin məbləği və Emitentin öhdəliklərinin məbləği arasındakı fərq deməkdir. |
| "Bir Səhmə Aktivlərin Xalis Dəyəri" | müvafiq müddətdə Emitentin ödənilmiş və qeydiyyata alınmış nizamnamə kapitalında payların sayına bölünmüş Aktivlərin Xalis Dəyəri deməkdir. |
| "Xalis İşləməyən Kreditlər" | Təsnif Edilmiş Kreditlər daxil olmaqla bütün İşləməyən Kreditlərin ümumi məbləği çıx Kredit İtkiləri üzrə Ehtiyatlar cəmi. |
| "İstiqrazların Nominal Dəyəri" | 1.1 bəndində təsbit edilmiş mənanı ifadə edir. |
| "İşləməyən Kreditlər" | (a) bütün Riskləri nəzərdə tutan müqavilələrə əsasən Risklərin hər hansı hissəsi müvafiq ödəmə tarixlərindən 90 (doxsan) gündən artıq müddət ərzində ödənilməmiş bütün Risklər;<br><br>(b) bütün Risklərin hər hansı hissəsi üzrə borclunun Emitent qarşısında öhdəlikləri-borcu qaytarmaq qabiliyyəti olmadıqda 18 ay ərzində verilən kreditlərin müəyyən hissəsi resktrukturlaşdırılmış bütün Risklər; və |

(c) Emitentin rəhbərliyinin əsaslı rəyinə əsasən, müəyyən zaman keçdikdən sonra yuxarıdakı (a) və (b) bəndlərinə müvafiq olaraq İşləməyən Kreditlər kimi təsnifləşdirilə bilən istənilən digər Risklər deməkdir.

"Maneə Törədici Əməllər" aşağıdakılar deməkdir:

(a) Korrupsiya Əməlləri, Dələduzluq Əməlləri, Zorakılıq Əməlləri və ya Gizlin Sözləşmə Əməllərini əsaslandırmaq məqsədilə rəsmi araşdırmaya maddi cəhətdən əngəl törədərək tədqiqatçıların hesabatlarını saxtalaşdırmaq və ya araşdırmanın sübut materiallarını bilərəkdən məhv etmək, saxtalaşdırmaq, dəyişmək və ya gizlətmək və/və ya hər hansı tərəfi qorxutmaqla, hədələməklə, narahat etməklə onun araşdırılan iş üzrə bildiklərini açıqlamasının və ya araşdırmanı müşaiət etməsinin qarşısını almaq;

(b) Korrupsiya Əməlləri, Dələduzluq Əməlləri, Zorakılıq Əməlləri və ya Gizlin Sözləşmə Əməllərinin əsaslandırılması üçün rəsmi araşdırmalarla əlaqədar olaraq müqavilə ilə tələb edilən məlumatın Emitent tərəfindən əldə olunmasına maddi cəhətdən əngəl törətməyə niyyətlənmiş hərəkətlər.

"Satın Alma Tarixi" İstiqrazların müvafiq istiqraz sahibi tərəfindən və ya adından Bakı Fond Birjasında alındığı tarix deməkdir.

"İstinad Səhifəsi" Reyter xidmətlərində LIBOR01 səhifəsi qismində müəyyən edilmiş ABŞ Dollarında olan depozitlər üçün əsas banklar tərəfindən təklif edilən Londonun banklararası dərəcələrinin təzahürü (və ya ABŞ Dollarında olan depozitlər üçün əsas banklar tərəfindən təklif edilən Londonun banklararası dərəcələrinin təzahürü məqsədilə Reyter xidmətlərində LIBOR01 səhifəsində yerləşdirilə bilən digər səhifə) deməkdir.

"Bəyanatlar" 1.20 bəndində təsbit edilmiş bəyənatlar və zəmanətlərdən hər hansı biri deməkdir.

"Risk Dərəcəsi üzrə Ölçülmüş Aktivlər" Bazel Kapital Sazişinə müvafiq olaraq kredit riksi üzrə ölçülmüş Emitentin balans və balansdan kənar aktivləri deməkdir.

| | |
|---|---|
| "Sanksiyalı Əməllər" | hər hansı Korrupsiya Əməlləri, Dələduzluq Əməlləri, Zorakılıq Əməlləri və ya Gizlin Sözləşmə Əməlləri deməkdir. |
| "Bir Şəxs" | hər hansı qarşı tərəf və ya mövcud olduğu halda həmin qarşı tərəfin bütün Əlaqəli Şəxsləri deməkdir. |
| "QKDK" | Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi deməkdir. |
| "Törəmə Cəmiyyət" | hər hansı hüquqi şəxsə münasibətdə birbaşa və ya dolayı yolla həmin hüquqi şəxs tərəfindən 50 (əlli) faiz kapitalına malik olan və ya digər cəhətdən effektiv şəkildə nəzart edilən digər istənilən hüquqi şəxs. |
| "Vergi/Vergilər" | istənilən vergi, royalty, rüsum və ya digər öhdəlik, qiymətləndirmə, tutulma, çıxılma, əlavə dəyər vergisi və ya istənilən qanuna əsasən tutulan istənilən vergi növü (müvafiq cərimə və faiz daxil olmaqla) deməkdir. |
| "I Dərəcəli Kapital" | Bazel Kapital Sazişində müəyyən edildiyi kimi Emitentin 1-ci dərəcəli kapitalı deməkdir. |
| "II Dərəcəli Kapital" | Bazel Kapital Sazişində müəyyən edildiyi kimi Emitentin 2-ci sinif kapitalı deməkdir. |
| "Ümumi Aktivlər" | BMHS – a müvafiq olaraq müəyyən edilmiş Emitentin aktivlərinin ümumi balans dəyəri deməkdir. |
| "İstiqrazların Ümumi Sayı" | 1.3 bəndində təsbit edilmiş mənanı ifadə edir. |
| "ABŞ Dolları" | Amerika Birləşmiş Ştatlarının qanuni valyutası deməkdir. |

2. **Təfsir qaydaları**. Emissiya prospektinin B Bölməsində və hazırkı A Cədvəlində,

2.1 konteksdən digəri irləli gəlmirsə, tək halda olan sözlər cəm halı da ehtiva edir və əksinə;

2.2 bəndlərə istinadlar hazırkı emissiya prospektinin B Bölməsindəki bəndlərə istinadlar kimi şərh edilmir;

2.3 istənilən şəxs münasibətdə istifadə edilən "nəzarət" sözü ("ümumi nəzarət altında" və ya "tərəfindən nəzarət edilən" kimi oxşar sözlər də daxil olmaqla), birbaşa və ya dolayı yolla, səsli səhmlər, müqavilə və ya digər vasitələrlə həmin şəxsin idarəetmə və siyasətlərini müəyyən etmək hüququna malik olmaq deməkdir;

2.4 “şəxsə” istinad istənilən fiziki və ya hüquqi şəxsi, firma, şirkət, korporasiya, hakimiyyət və dövlət və ya dövlətin və ya hər hansı assosiasiyanın agentliklərini, trast və ya ortqalıqları (ayrıca hüquqi şəxs olub-olmamasından asılı olmayaraq ) və ya yuxarıda qeyd edilənlərin iki və ya daha çoxunu ehtiva edir və “şəxsə” istinadlar onun hüquqi varislərini və təyin edilmiş varislərini ehtiva edir; və

2.5 “daxil olmaqla” və ya “daxil edir” qeyd edilmədiyi halda həmçinin “məhdudiyyət olmadan” sözünü də entiva edir.

## CƏDVƏL B

Hazırkı emissiya prospektinin tarixinə mövcud olan Yüklülüklər:

1. Ümumi məbləği 2.25 milyon avro olan Emitentin öhdəliyini təmin etmək üçün, Emitent və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və "Kreditanstalt für Wiederaufbau" (bundan sonra "KfW") şirkətini təmsil edən, KfW və Beynəlxalq Kooperasiya üçün Əmanət Bankları Fondu arasında imzalanmış 1 avqust 2002-ci il tarixli Məsləhət Xidmətləri Müqaviləsinə əsasən fəaliyyət göstərən Almaniya-Azərbaycan Fondu (bundan sonra "AAF Menecer") arasında bağlanmış və ona edilmiş 10 sentyabr 2004-cü il tarixli 6 saylı Düzəliş və 7 oktyabr 2004-cü il tarixli 7 saylı Düzəlişlə birlikdə 16 yanvar 2003-cü il tarixli Çərçivə Müqaviləsinə müvafiq olaraq yaranmış Yüklülüklər - 4.02(c) Bəndi: - hər hansı borcun təmin edilməsi üçün istənilən əmlak üzərində yaradılmalı olan istənilən yüklülüyə icazə verilməsi və ya yaradılması halında Avans Məbləğlərin əsas məbləğlərini və faizlərini qarantiya etmək üçün bərabər təminatın təqdim edilməsi üzrə eyni öhdəliklər;

2. Ümumi məbləği 5 milyon ABŞ Dolları olan Emitent və NEDERLANDSE FINANCIERINGS-MAATSCHAPPIJ VOOR ONTWIKKELINGSLANDEN N.V. (bundan sonra "FMO") arasında bağlanmış 11 dekabr 2006-ci il tarixli Kredit müqaviləsinə əsasən Emitentin öhdəliyini təmin etmək üçün Emitent və FMO arasında bağlanmış 22 fevral 2007-ci il tarixli Girov Müqaviləsinə müvafiq olaraq yaranmış Yüklülük – 2.01 Bəndi: Unibank bununla Sub-kreditlər üzrə bütün hüquqlarını FMO xeyrinə girov qoyur;

3. ümumi məbləği 3 milyon ABŞ Dolları olan Emitent və Qara Dəniz Ticarət və İnkişaf Bankı (bundan sonra "QDTİB") arasında bağlanmış 14 fevral 2008-ci il tarixli Kredit Müqaviləsinə əsasən Emitentin öhdəliyini təmin etmək üçün Emitent və QDTİB arasında bağlanmış 14 fevral 2008-ci il tarixli Girov Müqaviləsinə müvafiq olaraq yaranmış Yüklülük – 2.01 Bəndi: Davamlı təminat qismində Unibank Sub-Kredit Müqaviləsinə və Sub – Kredit Təminat Müqaviləsinə əsasən QDTİB xeyrinə ilkin müstəsna girov yolu ilə bütün hüquqlarını girov qoyur; və

4. hər birinin ümumi məbləği müvafiq olaraq 50 million AZN, 15 million AZN və 10 million AZN olan Emitent və Azərbaycan Respublikasının Mərkəzi Bankı (bundan sonra "AMB") arasında bağlanmış 18 noyabr 2008-ci il, 5 may 2009-cu il və 21 may 2009-cu il tarixli Kredit Müqavilələrinə əsasən Emitentin öhdəliyini təmin etmək üçün Emitent və AMB arasında bağlanmış 18 noyabr 2008-ci il, 23 aprel 2009-cu il və 5 may 2009-cu il tarixli Girov Müqavilələrinə və həmçinin onlara əlavə edilmiş 5 may 2009-cu il tarixli, 21 may 2009-cu il və 21 may 2009-cu il tarixli düzəlişlərə müvafiq olaraq yaranmış Yüklülüklər. Təminata avtomobil kreditləri üzrə tələb hüququ, banka aidiyyatı olan fiziki şəxslərin əmlakı, Azərbaycan, Bakı şəhəri AZ1022, Rəşid Behbudov küçəsi, 384-cü kvartal ünvanında yerləşən 0,1 hektar torpaq sahəsinin icarə hüququ və Azərbaycan, Bakı şəhəri AZ1022, Rəşid Behbudov küçəsi, 384-cü kvartal ünvanında yerləşən Unibankın baş ofisinin 10 mərtəbəlik qeyri yaşayış binası daxildir.

## QOŞMA A – KONVERTASİYA HADİSƏSİ BİLDİRİŞİ FORMASI

[hüquqi şəxs olduğu halda istiqraz sahibinin rəsmi blankında çap edilməlidir]

[Tarix]

Unibank Kommersiya Bankı
Rəşid Behbudov küçəsi 57
Bakı AZ1022
Azərbaycan

Diqqətinə: [*Ad*]

Mövzu: 2016-cü ildə ödənilməli 25 000 000 ABŞ Dolları həcmində Konversiya İstiqrazları

Hörmətli xanım/cənab:

1. Hazırkı sənəd [*tarixdə*] Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən [*nömrə*] nömrəsi altında qeydiyyata alınmış Konversiya Borcu İstiqrazlarının Emissiya Prospektində (bundan sonra "Prospekt") nəzərdə tutulmuş Konvertasiya Hadisəsi Bildirişidir. Hazırkı Konvertasiya Hadisəsi Bildirişində istifadə edilən və başqa cür müəyyən edilməyən terminlər onlara Prospektdə verilmiş mənaları ifadə edir.

2. Prospektin 1.25[*(i)/(ii)*] bəndinə əsasən 1.22[*(i)/(ii)*] bəndində təsvir edilmiş Konvertasiya Hadisəsi baş verdiyi halda bizim sahibi olduğumuz İstiqrazları konversiya etmək hüququmuz vardır. Nəzərə alaraq ki, [*konvertasiya hadisəsinin təsviri*], biz, [*miqdar*] ədəd İstiqrazların sahibi, bununla, Prospektdə təsbit edilmiş şərtlərə müvafiq olaraq İstiqrazlarımızın [*hamısının/bir hissəsinin*] aşağıda müəyyən edildiyi kimi Konvertasiya Səhmlərinə konversiya edilməsini xahiş edirik:

   a. Konversiya edilməli İstiqrazların ümumi sayı: [*miqdar*];

   b. Konversiya edilməli İstiqrazların ümumi nominal dəyəri: [*məbləğ*];

   c. Konvertasiya Səhmlərinin ümumi sayı: [*miqdar*][1];

   d. Konvertasiya Tarixi: [*tarix*];

   e. Konvertasiya Tarixində ödənilməli olan toplanmış faizlərin məbləği: [*məbləğ*].

3. Biz, bununla, bu Konvertasiya Hadisəsi Bildirişi nəticəsində bizə veriləcək Konvertasiya Səhmlərinin Azərbaycan Respublikasının Milli Depozit Mərkəzində yerləşən [*nömrə*] saylı depo hesabımıza köçürülməsini və Konvertasiya Səhmlərinə bizim mülkiyyət hüquqlarımızı təsdiq edən şəhadətnamənin aşağıdakı ünvana çatdırılmasını xahiş edirik:

[1] Müvafiq Konvertasiya Nisbətinə əsasən.

[*Ünvan*].

Hörmətlə,

[*İstiqraz sahibi*]

İmza: ________________________